

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**LAÇIN: köçkünlüyün hər səhəri, qayıdışın ilk səhəri...**




5


# SƏS

№ 149 (6832)

22 avqust 2023-cü il.
Qiyməti 60 qəpik


## AZƏRBAYCAN-MACARISTAN: Yüksələn xətlə inkişaf edən strateji tərəfdaşlıq!



2

# Qarabağdan qaçış planı...



*Separatizmə dəstək verən Rusiya vətəndaşlığı olan şəxslər bölgəni necə tərk edir?*

11

### İxtisas seçimi zamanı nələrə diqqət etmək lazımdır?



7

### Tofiq Yaqublu Gürcüstana niyə gedir?



14

### Bəşəriyyətin qurtuluşu vəhşi erməni toplumundan xilas olmaqdan keçir




8



### Avtomobil bazarında qiymət artımı nə ilə əlaqədardır?

11

### Rasim Balayev - kütlə şüurunun "edam etdiyi" müasir Nəsimi...



4

# AZƏRBAYCAN-MACARISTAN:

## Yüksələn xətlə inkişaf edən strateji tərəfdaşlıq!

***Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Macarıstanla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Azərbaycan-Macarıstan əlaqələri 31 il ərzində diplomatik əməkdaşlıqdan strateji münasibətlərə qədər böyük inkişaf yolu keçib. Bu dövr ərzində Azərbaycan və Macarıstan arasında 50-dən çox əməkdaşlıq sənədi imzalanıb. Ölkələr isə ikitərəfli müstəvidə və beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir. Bu gün Azərbaycan və Macarıstan bir çox sahələrdə, o cümlədən siyasi, iqtisadi, energetika, təhsil, nəqliyyat, kənd təsərrüfatı sferalarında geniş formada əməkdaşlıq edərək iki ölkə arasında qarşılıqlı münasibətlərin dərinləşməsinə təkan verməkdədir.***



*PREZİDENT İLHAM ƏLİYEV:*
*“Azərbaycan və Macarıstan öz münasibətlərini artıq strateji tərəfdaşlıq kimi müəyyən edib”*

*Baş nazir VİKTOR ORBAN:*
*”Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır”*



### AZƏRBAYCAN İLƏ MACARISTAN ARASINDA DOSTLUQ, ƏMƏKDAŞLIQ VƏ STRATEJİ TƏRƏFDAŞLIQ RUHUNDA İNKİŞAF EDƏN İKİTƏRƏFLİ ƏLAQƏLƏRİN DAHA DA GENİŞLƏNDİRİLMƏSİ ÖLKƏMİZİN XARİCİ SİYASƏTİNİN VACİB İSTİQAMƏTLƏRİNDƏNDİR

Azərbaycan-Macarıstan əlaqələri iki ölkə arasında münasibətlərin qurulduğu tarixdən etibarən daim yüksələn xətlə inkişaf edir. Azərbaycan ilə Macarıstan arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf edən ikitərəfli əlaqələrin daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindəndir. Macarıstan Azərbaycanın strateji tərəfdaşı və Avropa İttifaqında ən etibarlı tərəfdaşlarından biridir. İki ölkə arasında siyasi dialoq yüksələn xətlə inkişaf etməkdədir. Belə ki, 1991-ci il dekabrın 26-da Azərbaycan Respublikasının müstəqilliyini tanıyan Macarıstanla diplomatik münasibətlər 1992-ci il aprelin 27-də qurulub. Keçən il diplomatik münasibətlərimizin qurulmasının 30 illiyi qeyd edilib. 2004-cü ildə Azərbaycanın Macarıstanda, 2009-cu ildə isə Macarıstanın ölkəmizdə səfirliyi təsis olunub. İki ölkə arasında parlamentlərarası münasibətlər də yüksək səviyyədə inkişaf edir. Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Macarıstan parlamentində də Macarıstan-Azərbaycan dostluq qrupu fəaliyyət göstərir. Bu vaxtadək iki ölkə arasında imzalanan 50-dən çox sənəd müqavilə-hüquq bazasının möhkəmlənməsində mühüm rol oynayıb. Çoxtərəfli platformada, xüsusilə BMT, ATƏT, NATO, Aİ, Şərq Tərəfdaşlığı, Vişeqrad Qrupu, Türk Dövlətləri Təşkilatı çərçivəsində iki ölkə arasında davamlı əməkdaşlıq əlaqələri inkişaf etdirilir.

Bu il yanvarın 29-30-da Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstan Prezidenti xanım Katalin Novakın dəvəti ilə dost ölkəyə rəsmi səfəri əməkdaşlığın inkişafında yeni səhifə açdı. Prezident İlham Əliyevin dövlət başçısı kimi Macarıstana sayca dördüncü səfəri ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verdi. Səfər çərçivəsində Azərbaycan ilə Macarıstan arasında strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə idi. Bəyannamədə tərəflər ikitərəfli əməkdaşlığın bütün sahələri, həmçinin beynəlxalq və regional məsələlər üzrə strateji dialoqu davam etdirməyə hazırlıqları olunmuşdu. Sənəddə, eyni zamanda, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyi qeyd olunaraq, TDT-nin Macarıstandakı Nümayəndəlik Ofisinin fəaliyyəti xüsusi vurğulanıb.

Belə ki, növbəti səfər - avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Budapeştə işgüzar səfəri, səfər çərçivəsində Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban, həmçinin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç və Serb Respublikasının Prezidenti Milorad Dodik ilə görüşlər Azərbaycan ilə Macarıstan arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf edən ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə müsbət təsir edəcək.

### AZƏRBAYCAN PREZİDENTİNİN VİKTOR ORBANLA GÖRÜŞÜNDƏ MACARISTAN ŞİRKƏTLƏRİNİN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ FƏALİYYƏTƏ BAŞLAMASI MÜSBƏT QİYMƏTLƏNDİRİLİB

Prezident İlham Əliyev Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüş əsnasında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərində Macarıstan şirkətlərinin fəaliyyətə başlaması müsbət addım kimi qiymətləndirildi və bu istiqamətdə daha böyük imkanların olduğu vurğulandı.

Qeyd edək ki, işğaldan azad edilmiş Azərbaycan ərazilərində aparılan bərpa-quruculuq işlərində iştiraka Macarıstan şirkətləri böyük maraq göstərirlər və bununla bağlı müvafiq layihələr təqdim ediblər. Macarıstan işğaldan azad edilmiş ərazilərimizdə minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə könüllü töhfə olaraq 25.000 avro ianə edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşündə deyib ki, hazırda Azərbaycanın enerji resursları əvvəlki dövrlə müqayisədə Avropaya daha çox lazımdır: ”Biz öz təchizatımızı artırmağa hazırıq və əlbəttə ki, əməkdaşlığı dost ölkələrlə başlamaq istəyirik. Bu gün biz enerji sahəsində uzunmüddətli işbirliyinə imkan yaradacaq müvafiq Anlaşma Memorandumunu imzalayacağıq”.

”Lakin təkcə bu sahə deyil, çünki biz təhsil və mədəniyyət sahələrində əməkdaşlıq edirik. Biz Qarabağ bölgəsində yenidənqurma işlərində macar şirkətlərini görməyi ümid edirik. Bu gün biz cənab Baş nazirlə bu və digər məsələləri müzakirə etdik”, - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycan ilə Macarıstan arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti vurğulandı. Qida sənayesi sahəsində Macarıstanın Azərbaycana investisiya qoyuluşu, əczaçılıq sənayesi sahələrində əməkdaşlıqla bağlı əldə olunmuş müsbət dinamika qeyd edildi, Macarıstan aviadaşıyıcısı vasitəsilə Bakı-Budapeşt reyslərinin həyata keçirilməsinin önəminə toxunuldu, ümumilikdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Qeyd edək ki, iki ölkə arasında enerji diplomatiyasının mühüm elementləri üzrə də uğurlu əməkdaşlıq mövcuddur. Macarıstan Cənub Qaz Dəhlizi layihəsini dəstəkləyir və bu layihədən yararlanmaq istəyini dəfələrlə izah etmişdir. Macarıstan Azərbaycan ilə enerji sahəsində əməkdaşlığa olduqca böyük əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın oynadığı strateji rolu daim təqdir edir: ”Əlbəttə ki, enerji gündəliyimizdə birinci yerdədir. Bu gün biz mühüm Anlaşma Memorandumunu imzalayacağıq və mən bunu çox mühüm addım hesab edirəm, çünki o, qaz təchizatı sahəsində əməkdaşlığa başlamaq üçün imzalanacaq ilk sənəddir”.

Həmçinin onu da qeyd edək ki, Azərbaycan tərəfindən Avropanın Cənub-Şərq hissəsi və Qara Dəniz hövzəsində yerləşən dövlətlərə enerji ehtiyatlarının çatdırılması siyasətinin bir hissəsi olaraq Macarıstanla da bu sahədə əməkdaşlığın qurulmasında hər iki tərəfin olduqca böyük potensialı mövcuddur.

Ardı Səh. 3

# AZƏRBAYCAN-MACARISTAN:

## Yüksələn xətlə inkişaf edən strateji tərəfdaşlıq!





Əvvəli Səh. 2



### AZƏRBAYCAN-MACARISTAN MÜNASİBƏTLƏRİ STRATEJİ TƏRƏFDAŞLIĞA ÇEVRİLİR

Cari ilin yanvarın 30-da İlham Əliyevin Budapeştə səfəri zamanı liderlər mətbuata bəyanatlarla çıxış edərkən dövlət başçımızın ifadə etdiyi kimi, "ölkələrimiz arasındakı dostluq əlaqələri həm ölkələrimiz üçün, eyni zamanda, Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır".

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 30-da Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşündə bildirib ki, biz iki dost, həm də tərəfdaşıq: "Biz həqiqətən, iki dost və tərəfdaşıq. Biz öz münasibətlərimizi artıq strateji tərəfdaşlıq kimi müəyyən etmişik. Bu gün isə biz əməkdaşlığımızın strateji mahiyyətini təsdiqləyəcək digər sənədə imza atacağıq".

Dövlətimizin başçısı bildirib ki, milli ənənələrə sadiqlik, ailə dəyərlərinin qiymətləndirilməsi kimi prinsiplər bizim həyat prinsiplərimizdir. Həm ikitərəfli münasibətlərə baxışlarımız eynidir, həmçinin dünyada gedən prosesləri də biz eyni prizmadan qiymətləndiririk: Baş nazir Viktor Orbanla artıq on ildən çoxdur dostluq etdiklərini bildirən Prezident İlham Əliyev bildirib ki, hər bir fürsətdən yararlanaraq ölkələrimiz üçün vacib olan məsələləri müzakirə etmək və onları həll etmək istəyirik.

Dövlət başçımız Macarıstanla dostluq əlaqələrimizin Avrasiya qitəsi üçün də çox böyük önəm daşıdığını söyləyərək bildirib ki, ölkələrimiz arasındakı dostluq əlaqələri həm ölkələrimiz üçün, eyni zamanda, Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır: "Cənab Baş nazir qeyd etdiyi kimi, biz uzun illərdir ki, bir-birimizlə sıx təmasdayıq. Bizi dostluq əlaqələri bağlayır. Ölkələrimiz arasındakı dostluq əlaqələri həm ölkələrimiz üçün, eyni zamanda, Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır".

### VİKTOR ORBAN: "Mən Prezident İlham Əliyevdən beynəlxalq arenada daha da uğurlu olmağı öyrənməliyəm"

Macarıstanın Baş naziri Viktor Orban yanvarın 30-da Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə verilən rəsmi naharda bildirib ki, Azərbaycan cənubda İranla, şimalda Rusiya ilə, Macarıstan isə qərbdə Almaniya, şərqdə Rusiya ilə sərhəddir. Biz bundan keçmişik. Biz vəziyyətə bələdik. Belə bir mürəkkəb vəziyyətdə xalqı idarə etməyin nə dərəcədə çətin olduğunu bilirik. Bu, bizə dostluğumuzun möhkəmlənməsində çox kömək edib. "Biz xarici siyasətdə bir-birimizi başa düşürük. Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meylliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm", - deyə Viktor Orban vurğulayıb.

Bəli, Prezident İlham Əliyevin Macarıstana səfəri, iki dövlət arasında olan əlaqələrin genişləndirilməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Ən əsası isə, Prezident İlham Əliyevin bu ölkəyə səfəri Azərbaycan-Macarıstan münasibətlərinin inkişafında yeni bir mərhələnin başlanğıcı olacaq. Dövlət başçımızın söylədiyi kimi: "Həqiqətən Macarıstan və Azərbaycan dost və strateji tərəfdaşdırlar".

Avqustun 20-də Macarıstanın paytaxtı Budapeştdəki Milli Atletika Mərkəzində atletika üzrə dünya çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalı keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Macarıstanın Baş naziri Viktor Orban ilə birlikdə finalı izləyiblər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç də yarışa baxıblar.

Atletika üzrə dünya çempionatı ilk dəfədir Budapeştdə keçirilir. Macarıstanın ev sahibliyi etdiyi ən böyük idman yarışı olan atletika üzrə dünya çempionatı avqustun 19-da start götürüb. Avqustun 27-dək davam edəcək bu mötəbər turnirdə 200-dən çox ölkədən 2000-dən artıq idmançı atletikanın 49 növü üzrə mübarizə aparır. Azərbaycanı dünya çempionatında iki idmançı təmsil edir.

Avqustun 20-də həmçinin Prezident İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç və Serb Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub. Görüşdə Prezident İlham Əliyevin bu ilin aprelində Bosniya və Herseqovinaya rəsmi səfəri və səfər zamanı aparılmış müzakirələrin önəmi vurğulandı, həmin səfər çərçivəsində Azərbaycan ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanmasının önəmi qeyd edildi.

Bəyannamədə qarşıya qoyulan vəzifələrin hazırda həyata keçirilməsi istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparıldı.

***RƏFİQƏ KAMALQIZI***

# Prezident İlham Əliyevin Budapeştə səfəri Macarıstan KİV-lərində geniş işıqlandırılıb




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri bu ölkə KİV-lərində geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, yerli mətbuatda yayımlanan xəbərlərdə dövlətimizin başçısının səfər çərçivəsində Macarıstanın Baş naziri Viktor Orban ilə görüşünə geniş yer verilib.**




”Origo”, ”Pesti Stacok”, ”Baon”, ”24.hu”, ”kuruc.info”, ”Mahyar Hirlap” və digər xəbər portallarında yayımlanan məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə görüşündən bəhs olunub. Məqalələrdə iki liderin görüşündə Macarıstanın və Avropanın enerji təhlükəsizliyi, bölgədəki vəziyyət, iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsi məsələlərinin müzakirə edildiyi vurğulanıb.




”Portfolio.hu” xəbər saytında dərc olunan məqalədə də Azərbaycan Prezidenti ilə Macarıstanın Baş naziri arasında görüşdə müzakirə olunan məsələlərdən danışılıb. Yazıda, həmçinin Macarıstan hökumətinin hər il 200 azərbaycanlı tələbəyə bu ölkədə təhsil almaq üçün təqaüd verdiyi qeyd olunub. Bundan başqa, Azərbaycan Prezidentinin səfər çərçivəsində Budapeştdə keçirilən atletika üzrə dünya çempionatının yarışlarına baxacağı və Macarıstanın milli bayramı münasibətilə təşkil olunan tədbirdə iştirak edəcəyi bildirilib.




”Haon” portalında yayımlanan ”Macarıstan ilə Azərbaycan arasında enerji əməkdaşlığı yeni mərhələyə qədəm qoyub” sərlövhəli məqalədə isə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun Prezident İlham Əliyev və Baş nazir Viktor Orbanın görüşü ilə bağlı fikirləri təqdim olunub. Xəbərdə iki ölkə arasında strateji əməkdaşlığın uzun müddət mövcud olduğu vurğulanıb, iqtisadi-ticari əlaqələrin son vaxtlar sürətlə inkişaf edərək yeni mərhələyə qədəm qoyduğu bildirilib. Yazıda Macarıstanın regionda ən böyük təbii qaz anbarına malik olduğu və iki ölkə arasında qazın nəqlinə dair əməkdaşlığın qurulduğu vurğulanıb. Qeyd olunub ki, bu, qarşıdakı dövrdə qazın Macarıstana təhlükəsiz şəkildə nəql olunmasına böyük töhfə verəcək.

Avropanın enerji təhlükəsizliyində mühüm oyunçuya çevrilən Azərbaycan ilə Macarıstan arasında bu sahədə əməkdaşlığın qurulmasına 2010-cu illərin əvvəllərində başlanmasının xatırlandığı məqalədə P.Siyartonun bu barədə fikirləri diqqətə çatdırılıb: ”Biz 2010-2011-ci illərdə Azərbaycanla gələcək enerji əməkdaşlığı ümidi ilə əlaqələr qurmağa başlayanda Avropada - Avropa İttifaqında nəinki gülüşlə qarşılandıq, hətta bu əlaqəyə görə bizi tənqid edirdilər. Bu gün bütün Avropa İttifaqının rəhbərliyi müntəzəm olaraq Bakıya səfər edir və bir çox hallarda istənilən Avropa İttifaqı ölkəsi lideri Azərbaycan Prezidenti ilə şəkil çəkdirmək üçün çox şey verərdi”.

Məqalədə nazirin işğaldan azad olunmuş ərazilərin bərpası prosesində Macarıstan şirkətlərinin iştirakının ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə mühüm töhfə verəcəyi barədə fikri də qeyd olunub. O, Soltanlı kəndinin Macarıstan şirkətləri tərəfindən yenidən qurulacağını və bu işlərə gələn il başlanılacağını qeyd edib.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Rasim Balayev - kütlə şüurunun ”edam etdiyi” müasir Nəsimi...

**Demək olar son on-on beş gündür ki, ölkə mediası, sosial şəbəkələr, hətta xeyir-şər məclisləri Xalq artisti Rasim Balayevin QEYBƏTİ ilə məşğuldur. Bəli, açıq-aşkar QEYBƏT! Bu səviyyəli, bu mövzulu müzakirələr ancaq və ancaq QEYBƏTDİR, başqa heç nə.**

Əvvəlcə əziz oxuculardan çox rica edirəm ki, məni də təkrarçılıqda, ”Rasim Balayev işi”ni gündəmə gətirib yoruculuq etməkdə günahlandırmasınlar. Mən ”Rasim Balayev işi”ndəki toplum olaraq bizim min illərdir ibtidai icma quruluşundan, feodalizmdən üzübəri bizimlə yol gələn və axırımıza çıxan qüsurlar barədə danışacam. Bəs nə olub, nə baş verib ki, ömrünü Azərbaycan kino sənətinə həsr edən, ölkə Prezidenti İlham Əliyev tərəfindən medal və dövlət mükafatı almamışdan qabaq bu yaxınlara qədərə hamının bəh-bəhlə əsl sənətkar, ağsaqqal deyib göyə qaldırdığı böyük sənətkar birdən-birə ”arzuolunmaz şəxsə” çevrildi? Səbəb nə idi ki, onsuz da olan-qalan əsl sənətkar nəslindən bizlərə sərvət kimi qalan bu nadir insanları belə ”topa tuturlar”? Səbəb, sadəcə, budur: KÜTLƏ ŞÜURU, vəssalam!

Amma R.Balayevin az qala psixoloji intiharına səbəb olacaq son hadisələr, onun səbəbləri barədə xırdalıqlarına qədər danışmazdan qabaq bir məqama diqqət edəcəm. Biz - Azərbaycan cəmiyyəti on illər boyu səvə-səvə əzizlədiyimiz dəyərli insanları bir saniyədəcə silib məhv etməyə, onu xalq düşməni, xalqa arxa çevirən pis sima kimi gözümçıxdıya salmağa hazır olan toplumuq.

Kimlər bu cəmiyyətdə bir andaca gözdən salınmayıb, kimlərin ”kitabı bağlanmayıb”, kimlər heç nədən kütlənin qabağına yağlı ”əppək” kimi atılmayıb ki? Həmin toplum ki, illərlə bu ölkənin qaymaq deyə biləcəyi ziyalı təbəqəsini, düşünən beyinlərini əsl düşmən kimi efirlərdə, sosial şəbəkələrdə 34 yaşında Xalq artisti olan, Babək, Beyrək, Nəsimi obrazları ilə Azərbaycanda bütöv bir nəslin vətənpərvər, xalqa bağlı vətəndaş mövqeyi ilə seçilən AZƏRBAYCANLI kimi böyüməsinə töhfələr vermiş bir sənətkar cinsi azlıq, ləçər, əxlaq pozğunu olan gədə-güdənin mənəviyyat qəssabxanasına çevirdikləri sosial şəbəkələrdə BİLƏ-BİLƏ gözdən salınırsa, bunun həm də ən böyük günahkarı Azərbaycan cəmiyyətidir.

Kütlədən fərqli olan, düşünən cəmiyyət, bu xalqın dəyərlərinin asanlıqla kütlə sürüsü tərəfindən - savadsızların, düşüncəsiz şəkildə bilə-bilə təxribat törətmək istəyənlərin, həyatda beş-üç qəpiyə görə düşmənlərin informator alətinə çevrilənlərin əli ilə dəyərli insanların məhv edilməsinə göz yummamalıdır!

Bax, bütün dəyərləri amansızca məhv edən həmin KÜTLƏ budur! Amma düşmənimiz olan erməni özünün olmayan yalançı ”qəhrəmanlarını” uydurub saxta tarix yaradır, dünyaya ”böyük dəyər” kimi tanıdır, Azərbaycan mədəniyyətindən, adət-ənənələrindən oğurladıqları ilə özünü ”qədim xalq” kimi dünyaya sırımaq istəyir, mənim cəmiyyətimiz isə əlində olan böyük dəyərlərimizi gözüyumulu şəkildə məhv edir. Məsələ təkcə R.Balayev məsələsi deyil. Məsələ özümüzə aid olan dəyərlərimizi, dəyərli insanlarımızı qəpik-quruşa xərcləmək xəstəliyimizlə bağlıdır.

Nə demişdi R.Balayev BBC-yə müsahibəsində? Demişdi ki, o, Prezidentlə görüşə sosial problemləri, rüşvəxtkor məmurları müzakirə etmək üçün, əhalinin yaşayış və dolanışığı barədə gileylənmək üçün getməyib. Yalanmı deyir? - qətiyyən! Sənətkara dövlət mükafatı verilib, dövlət başçısı dəvət edib, bu kişi də gedib görüşə. Mənim xanım həmkarım da sənətkara israrla deyir ki, niyə ölkədəki sosial vəziyyəti, bəzi məmurlar tərəfindən edilən haqsızlıqları müzakirəyə çıxarmadın? Məgər bu ölkənin Prezidenti rüşvətxor, işində nöqsanlara yol verən məmurlar barədə hər zaman ən sərt şəkildə tənqid dolu fikirlərini açıq ifadə etmirmi? Məgər rüşvət üstündə onlarla məmur cəzalandırılıb həbsxanada cəza çəkmirmi? - çəkir.

Məgər ölkə rəhbəri R.Balayevi ölkədəki gündəm barədə məsləhətləşmələr üçünmü görüşə çağırmışdı? Guya sual verən xanım dövlət protokolundan bixəbərdirmi? Yoxsa, bilə-bilə aqressiv sual yağışına tutmaqla sənətkarı kütlənin dilinə-dişinə salmaq istəyirdi? - hər şey mümkündür və istədikləri də oldu. Həmin sosial şəbəkələrdəki klaviatura arxasında bağırıb çığıran, sosial ədalətsizliyə ”dərd yanan” kütlə, hər gün cinsi azlıq gədələrlə, həyasız, ləçər həyatı yaşayan ”tik-tokerlərlə”, ”həcilərin” kedicik bozbaş səviyyəli ”müğənniləri” ilə şəkil çəkdirmək, salam vermək üçün restoranlarda, şadlıq saraylarında, turizm bölgələrində sıraya düzülürlər.

Siz kütlə, bəs həmin cinsi azlıq gədələrdən, ləçər ”tik-tokerlərdən”, maska həci ”müğənnilərindən” niyə soruşmursunuz ki, onları bəsləyən rüşvətxor vəzifəlilər bu pulları haradan qazanırlar? Niyə cinsi azlıqları, fahişələri bu həddə çatdırıb ölkədə mənəviyyatı, KİŞİLİYİ gözdən salırlar? Olan-qalan dəyərli kişiləri də sosial şəbəkələrdə bihörmət edib gözdən salmaq, bütün dəyərlərimizi - fərq yoxdur, aktyor olsun, sənətkar olsun, dindar olsun, jurnalist olsun, sosial şəbəkələrdə ortaya gözdən salmaq birbaşa erməni siyasəti üçün əsl hədiyyədir, vəssalam!

OÇERK+TƏHLİL

# LAÇIN: köçkünlüyün hər səhəri, qayıdışın ilk səhəri...




28 il idi ki, onlar yurdlarından didərgin salınmışdı. Bu 28 ildə nələr olmuşdu, nələr keçmişdi, nələr yaşanmışdı... Dədə-baba yurdundan çıxarkən Laçın boyda dərdi də ürəyinə qoyub gələn neçə-neçə ağsaqqal, ağbirçəklərimiz elə bu dərdlə də dünyalarını dəyişmişdilər. Onlar Laçın həsrətinə dözə bilməmişdilər. Yaşayanlar, necə, onlara, yaşayırlar, demək olardımı? Məcburi köçkünlüyün hər üzünü görmüşdülər onlar. Köçkünlüyün ilk illərində ölkəmizdəki iqtisadi böhranla öz elindəevində yaşayanlar ağır həyat sürdükləri halda məcburi köçkünlərin necə yaşamasını düşünmək o qədər də çətin deyil. 1992-ci il deyiləndə gözlər önünə gələn çörək növbələri, ərzaq qıtlığı, tez-tez televizordan eşitdiyimiz qara xəbərlər-torpaqların işğalı, sərhədboyu rayonların ermənilər tərəfindən atəşə tutulması, bir-birinin ardınca evlərə daşınan cənazələr-şəhidlər və günlər boyu saymaqla bitməyən digər dərdsər idi. Belə olan halda necə yaşayırdı laçınlı köçkünlər...

## Ümidə və ümidsizliyə açılan səhərlər...

Hansı ki, Laçın kimi cənnətməkanda bağ-bağatlı həyətlərini, saray kimi evlərini, dolu zirzəmilərini qoyub düşmən silahı burnunda ocaqlarını tərk etmişdilər. Ocaqları söndürülmüşdü. Kim deyər ki, sönən ocaq harada isə yenidən yandırıla bilər. Kim deyər?.. Ocaq yandırılar, lakin nə istisi o doğma ocağın istisi olar, nə çırtıltısı, nə də ki, közü. Odur ki, laçınlılar köçkünlükdə həyatın bütün acılarını gördülər. Sonrakı illərdə dövlətimiz onların həyat rifahı, yaşayışı üçün hərtərəfli şərait yaratsa da, lakin onların könlündə öz ocaqları vardı. O ocağın istisinə qızınmaq, o ocağın qoxusunu almaq istəyi köçkünlük cənnət olsa da, onlar üçün puç idi. Laçınlılar bax belə yaşayırdılar: yuxularında həyətlərində gəzməklə, bağ-bağatlarında işləməklə, meyvə-tərəvəz yığmaqla, zirzəmilərə yerləşdirməklə, həyətdəki tut ağacının altında samovar çayı içməklə, axşamçağı qoyun-quyunun, mal-heyvanın mələşə-mələşə həyətə doluşması, əli vedrəli ana-nənələrin süd sağmağa yollanması ilə, ot biçini, qış tədarükü ilə, yayın ən qızmar istisində həyətlərində bunu hiss etməmələri ilə, bayramları, adət-ənənələri, toy-büsatları ilə, qəbiristanlıqlarda uyuyan əzizlərini ziyarətlə... Bunlar hər biri isə yuxu idi, bəli. Laçınlılar bütün bunları gecə səhərədək yuxularında yaşayır, hər yeni səhər isə onların gözlərini yenə də köçkünlüyə açırdı. Hər yeri səhər yeni bir ümidə və ümidsizliyə açılırdı. Hər səhər yeni bir köks ötürmə, yeni bir həyəcan, sarsıntı, göz yaşı, yurd həsrəti, ocaq acısı idi. Bax bu idi laçınlıların 28 ildə yaşadıqları. Onlar bir gün Laçına qayıtmaq üçün böyük ümidlə yaşayırdılar. Lakin tez-tez də bu ümidin yerini böyük bir ümidsizlik alırdı. Çünki illər ötürdü. O illər gəlib 28 il də olmuşdu. Onlar Laçınsız neçə-neçə əzizlərini itirmişdilər. Onların "Laçın, Laçın" deyərək həyatdan üzülüşmələrini seyr etmişdilər. Canları yanmışdı. Ata-ana, nənə-babalarının ürəklərində Laçın boyda dərdlə dünyalarını dəyişməsi onları yandırıb yaxırdı. Öz yurdunda deyil, yad yurdda torpağa tapşırılmaları onlara heç bitməyən göz yaşı verirdi.







Gəncliklərini orada qoyub gəlmişdi laçınlılar. İndi o gənclikdən əsər belə yoxdur. Yaş 50-60-dır. "Görəsən o uşaqlıq, gənclik illərinin Laçınına bir də qayıda biləcəyikmi?" deyirdi hər gün onlar. O xatirələr hopmuş Laçında yenidən o hissləri oyada biləcəkdilərmi? Qarış-qarış gəzdikləri o dağlara, o bağlara yenidən ayaqları dəyə biləcəkdimi?

Ümid və ümidsizlik... Ümid itəndə insan məhv olar. Ümid hər yeni bir gündür. Xeyr, laçınlılar ümidlərini itirmirdilər. Onlar bir gün Laçına qayıtmaq sevgisi, istəyi ilə hərdən ümidsizliyə qapılsalar da, yaşayırdılar. Onları həyatda yaşadan da elə bu ümid idi. Hər yeni səhərləri gecə yuxularından sonra ümidsizliyə açılsa da, lakin ardınca bir ümid yenə də onların içinə dolurdu. Qayıdacaqları gün hökmən olacaqdı...

## Gün o gün oldu...

2020-ci ilin 44 günlük payızında işğaldan azad olunmuş torpaqlarımızın ardınca Laçın da azadlığına qovuşdu. 10 noyabrda Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış birgə Bəyanatla dekabr ayının 1-də Laçın 28 ildən sonra anası Azərbaycana qovuşdu. Bu müjdəli xəbəri də Vətən müharibəsi başlanandan bir-birinin ardınca aldığımız qələbə xəbərləri kimi, ölkəmizin başçısı, Ali Baş Komandanımız cənab İlham Əliyevdən aldıq: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Dövlətimizin başçısı müraciətində Laçınla bağlı çox mühüm məsələlərə də toxunaraq deyirdi ki, Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir: Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə ələqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhliz erməni işğalçı qüvvələrindən təmizlənib.

Ardı Səh. 6

# LAÇIN:

## köçkünlüyün hər səhəri, qayıdışın ilk səhəri...

Əvvəli Səh. 5

Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə, 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir... Uzun illər ərzində - 30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə çox önəmli və ayrı bir mövzu kimi müzakirə olunurdu. Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Əfsuslar olsun ki, bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və demək olar ki, düşmən tamamilə azğınlaşmışdı. Bunun nəticəsində, məhz Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. İşğaldan azad edilmiş digər yerlərdə qanunsuz məskunlaşma baş verirdi, amma bu dərəcədə yox, bu həcmdə yox.

Beləliklə, Laçının işğaldan azad olunması ikiqat qələbə sevincini bizə bəxş etdi. Ölkəmizin başçısının uzun illər apardığı danışıqların, həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq bu qədər böyük əhəmiyyətə malik olan yurd yerimiz ermənilərin və onların havadarlarının istəklərinin əksi olaraq geri qaytarıldı. Laçın ermənilərə göz dağı oldu.

### Laçından aparan yollar... Laçına qaytaran yollar...

Hər dəfə Laçından söhbət düşəndə, 30 ilin hicranı vüsala çevrilən bu yurd yerinin abadlaşmasını, ona uzanan yolları görəndə, tikilən hava limanında yaxın gələcəkdə təyyarələrin qalxmasını, enməsini xəyal edəndə gözlərim önündə geniş bir yol canlanır. Bu yol Laçın yoludur. Bizi əzəli yurd yerimizdən, qədim ata-baba torpaqlarımızdan birinə aparan yol... Bu yollar nələrə şahid yollar idi, İlahi? Birinci Vətən Müharibəsindən ta üzü bəri bu yolların sinəsindən nələr keçib, bu yollar nələrə tab gətirib. 30 il düşmən döyənəyi, ölkəsində qərib yollar... Gözü yolda yollar... Yol olasan, yol gözləyəsən, bax dərd bu dərd idi...

Bu yollar indi hamardır, yenidir, gözəldir, genişdir, bir də ki, dərdsiz-qəmsizdir. Günəşlidir bu yollar. Qıvrıla-qıvrıla dağların sinəsinə doğru uzanan yollar sanki səma ilə sevdalıdır, bir nəfəsə ona çatmağa tələsir. Bu, elə bir gözəllikdir ki, yüz danışan olsa da, yalnız öz gözünlə görüb heyranı olmalısan. Bu yollarla Laçına üz tutub o bənzərsiz təbiət ərməğanının qonağı olmalı, yalnız bu halda Laçın nə Laçınmış, görməlisən...

Bu yollar aylardır ki, 31 il öncə Laçından qoparılıb köçkünlük həyatına aparılanları yenidən Laçına qaytarır. Bu yollar gecə-gündüz bərq vurur. Gündüz ona görə işıq saçır ki, ta azaddır. Günəş verdiyi sözə sahib çıxdı, 2020-ci ildə 28 illik gizlənişdən sonra yenidən doğdu. Doğmaları üçün dan yerini sökdü. Şəfəqlərini ətrafa yaydı...

Gecələr bu yollar ona görə işıqlıdır ki, Laçın geri alınan gündən abadlaşdırılır. Ən birinci isə yol infrastrukturu yeniləndi. Çünki yol abad olmasaydı, bu dağlara özünü bənd etmiş gözəlliklər məkanında bir daşı da daş üstünə qoymaq olmazdı. Bu yollar illərlə baxımsızlıqdan bərbad vəziyyətə düşmüşdü. Lakin bu yollar indi gündüzlər kimi, gecələr də işıq saçır, düşmənin gözünü qamaşdırır.

### Laçına-yurda, el-obaya, evə-ocağa qayıdış

Prezident İlham Əliyev bu il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində deyirdi: "Avqustun 26-da - nəzərdə tutulmuş vaxtdan xeyli əvvəl biz Laçın şəhərini də azad etdik və eyni zamanda, Laçın rayonunun Zabux və Sus kəndlərinə də qayıtdıq. Bu da böyük nailiyyətdir... Əminəm ki, biz 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq, ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar.

Dövlətimizin başçısı aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində isə belə deyirdi: "Mən bir müddət bundan əvvəl demişdim ki, biz keçmiş köçkünləri bu ilin sonuna qədər Laçın şəhərinə qaytaracağıq. Bax, bu gün tam əminliklə deyə bilərəm ki, biz yay aylarında artıq buna nail olacağıq. Yəni, biz bu işi vaxtından tez görürük... Əgər birinci mərhələdə Laçın şəhərində 400-dən bir qədər çox evin inşasını nəzərdə tuturduqsa, son məlumata, son planlarımıza görə, ancaq fərdi evlərin sayı 570 olacaq. Eyni zamanda, 140-dan çox mənzil hazır olacaqdır. Yəni, beləliklə, 700-dən çox ailəni biz bu ilin yay aylarında Laçın şəhərində yerləşdirəcəyik.

Beləliklə, 28 may 2023-cü il tarixdə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlandı. Birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürüldü. Vurğulayaq ki, ilkin mərhələdə köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda ən ağır şəraitdə yaşayanlar arasından seçildi.

***

Məcburi köçkünlər yuxarıda da qeyd etdiyimiz kimi, uzun illər yurd həsrəti ilə yaşasalar da, daim dövlət qayğısı ilə əhatə olunublar. Onların sosial müdafiəsinin təmin olunması istiqamətində əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət siyasətini Prezident İlham Əliyev davam etdirib, bu kateqoriyadan olan həmvətənlərimizin yaşayış şəraitinin yaxşılaşdırılması üçün ardıcıl və genişmiqyaslı tədbirlər həyata keçirib. Məcburi köçkünlərin problemlərinin həllinə Birinci vitse-prezident Mehriban xanım Əliyeva da hər zaman diqqət göstərib, təhsil, mədəni inkişaf, sağlamlıq və digər məsələlərdə onlara yaxından kömək edib.

### Onların doğma yurda qayıdışı da dövlət siyasətinin mühüm prioritetidir

***

İyunun 14-də isə növbəti köç karvanı Laçına yola salındı. Belə ki, daha 22 ailə - 72 nəfər doğma yurd-yuvasına döndü.

İyunun 19-da isə daha bir köç karvanı Laçına yola salındı. Bu mərhələdə isə Laçın şəhərinə daha 15 ailə - 48 nəfərin köçürülməsi baş tutdu.

Laçın şəhərinə doğma sakinlərinin geri dönüşü iyul ayında da davam etdi. Belə ki, iyulun 13-də növbəti köç karvanı ilə 23 ailə olmaqla, 85 nəfər Laçına-doğma yurduna qovuşdu. Bununla da, Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edildi.

Gün 25 iyul oldu. Böyük Qayıdış Proqramı çərçivəsində bu mərhələdə Laçın şəhərinə daha 19 ailə (89 nəfər) köçürüldü.

Və iki gün öncə, 20 avqust Laçın şəhəri yenə də doğmalarını qarşıladı. Bu dəfə isə daha 13 ailə - 46 nəfər doğma ocağına qayıtdı. Onlar Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşdılar.

Bu qayıdış zamanı "Prezident İlham Əliyevə, torpaqlarımızın azad edilməsində əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm. Allah şəhidlərimizə rəhmət etsin, sağlamlıqlarını itirənlərə sağlıq versin. Biz, bu gün onların sayəsində öz yurdumuza - Laçına qayıdırıq",-deyən Laçın sakini Rəfiqə Quliyevanın "Laçına qayıtdıqdan sonra imkan olarsa, öz həyətimizi, yaşadığımız yerləri gəzmək istəyirəm. Həmçinin orada yaxınlarımızın məzarlarını ziyarət edəcəyəm. Qayıdış sevincimizdə payı olan hər kəsə təşəkkür edirəm" kimi sözlərini həyəcansız qarşılamamaq mümkün olmadı. Çünki bu ifadələrdə onların illər uzunu gözlədikləri bir gün reallaşırdı, həm də illər uzunu arzuladıqları gerçəyə çevrilirdi. Bu ağbirçək qadın cavanlıqda Laçını tərk etmişdi. İndi Laçına yaşlı olaraq qayıdırdı. Dünənin və bu günün şahidi kimi qayıdırdı. Onun söylədikləri bütün laçınlıların ürəyindən keçənlər idi. Həm minnətdarlıq hissləri, həm də əzizlərini ziyarət edəcəyi, hər yeri gəzəcəyi fikirləri.

Bunların hər birini hər bir laçınlı edəcək. Doğma yurduna qayıdan Sevda Ağalıyevanın dediyi kimi, torpağı öpənlər də olacaq. Çünki bu torpaq heç də asanlıqla yenidən qazanılmadı. O bir dəfəlik itirilə də bilərdi. Bir yurd, ocaq əbədiyyən yox ola, söndürülə, bilərdi. Laçınlıların 28 il boyu ümidi ümidsizliklə yerini əvəzləyə bilərdi.

Lakin dövlətimizin başçısı və müzəffər ordumuz torpaq şərəfimizi, ləyaqətimizi xilas etdi. Bizə torpaqlarımızı yenidən qazandırdılar. Onların sahibi olduğumuzu təsdiqlədilər. Odur ki, Böyük Qayıdışla yurduna dönənlərin hər biri dövlətimizin başçısına, əsgər və zabitlərimizə, şəhid və qazilərimizə minnətdardırlar.

### Yurdda ilk səhər...

Səhər açılır... Laçın sakinləri yuxudan oyanır. Yurdda ilk gecənin rahatlığı ilə onlar hələ tam ayılmayıblar. Bu gecə heç kim yuxu görməmişdi, maraqlıdır... Az sonra harada olduqlarını dərk edən insanlar pəncərəyə yaxınlaşır və ətrafa baxırlar. Bu, nağıldırmı, yoxsa bir gerçək?.. Yox gerçəkdir, əsl gerçək. Bura onların doğma Laçınıdır... Köhnə yurdlarının yeni pəncərələrindən dağlar-vüqarlı, mübariz dağlar görünür. 31 il öncəki dağlardır. Heç dəyişməyiblər... O vaxt necə əzəmətli idilərsə, eləcə də dayanıblar.











Torpaq da Günəşin zərrin şəfəqləri altında eynilə 31 il öncəki rənginə çalır. Heç dəyişməyib. Dəyişən evlərdir, həyətlərdir. Elə ətrafa nəzər salan yaşlılar bu düşüncələrlə 31 il əvvələ qayıdırlar. Evlərini, həyətlərini göz önünə gətirirlər. Evlərindən didərgin salındıqları günü xatırlayırlar...

O evlərdən, həyətlərdən düşmən əsər-əlamət qoymamışdı. Hər birini yağmaladıqdan sonra od vurub yandırmışdı. Söküb satıb-sovmuşdu. Şəhər, kəndlərdə daşı daş üstündə qoymamışdı.

Budur, həmin torpaq üzərində onların evlərinin yerində yeni evlər tikilib. əvvəlkindən də gözəl, müasir dövrün tələblərinə uyğun. Ən əsası isə bu evlər həmin torpağın üzərində salınıb. Əlimizdən alınan, işğal olunan və minlərlə itkimiz hesabına qaytarılan torpaq.

İllər keçəcək... Laçınlıların bu həyətlərdə salacaqları bağ-bağat əvvəlki həyətlərindəki kimi-barlı-bərəkətli olacaq... Kəndlərə köçənlər mal-heyvan, toyuq-cücə saxlayacaqlar. Kənd kəndliyinə, şəhər şəhərliyinə qayıdacaq. Ən əsası isə odur ki, bu yeni evlərin yeni pəncərələrindən görünən dağlar eyni dağlardır. Əzəmətli Laçın dağlarıdır. Ən əsası odur ki, onların zəhmət nəğməsi olacaq bağ-bağatlarında yetişdirəcəkləri meyvə-tərəvəz eynilə damaqlarındakı dadda olacaq. Ən əsası odur ki, hava eynilə o havadır. Laçınlıların 31 ildə bir dəfə ciyərlərinə çəkmək üçün canlarını verməyə hazır olduqları hava... Əsasdan əsası isə odur ki, onlar dədə-baba torpaqları üzərindədirlər. Ayaqları doğma torpağa dəyir...

Ocaqları da ta bu torpaq üzərində yanacaq. Onları əbədiyyən isidəcək, qoxusunu ətrafa yayacaq. Çürtıltısı isə hər daim Zəfər nəğməsini dinlətməklə "biz haradan hara gəldik" adlı bir qərinəlik yolda baş verənləri anladacaq...

***Mətanət Məmmədova***

# Azərbaycan-Macarıstan əlaqələri qarşılıqlı etimada əsaslanır

## Prezident İlham Əliyevin dost ölkəyə işgüzar səfəri bunu bir daha təsdiqlədi





Dövlət başçısı İlham Əliyevin avqustun 20-də Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Budapeştə işgüzar səfəri ikitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bu mühüm məqamı da qeyd etməliyik ki, Mərkəzi və Şərqi Avropa ölkələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Qarşılıqlı səfərlər əlaqələrin inkişafında stimulverici amildir. Belə ki, bu səfərlər çərçivəsində keçirilən görüşlərdə tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılaraq səylərin birləşdirilməsi əsas faktor kimi önə çəkilir. Həmçinin imzalanan sənədlər əməkdaşlığın daha da dərinləşdirilməsində hüquqi baza rolunu oynayır. Prezident İlham Əliyevin Budapeştdə Baş nazir Viktor Orban ilə görüşündə dövlət başçımız diqqəti bu ilin yanvarında Macarıstana səfərinə yönəldərək əldə edilmiş razılaşmaların uğurla həyata keçirilməsindən məmnunluq ifadə etdi. Cənab İlham Əliyevin Macarıstanın Baş nazirini Azərbaycana səfərə dəvət etməsini qarşı tərəf böyük minnətdarlıqla qəbul etdi. Görüşdə Azərbaycan ilə Macarıstan arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti vurğulandı. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan və Macarıstan geniş iqtisadi potensiala malik ölkələrdir. Ölkələrimiz arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər iqtisadi əməkdaşlığın daha da genişlənməsində əhəmiyyətli baza rolunu oynayır. Macarıstan Azərbaycan ilə enerji sahəsində əməkdaşlığa böyük əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin mühüm rolunu daim təqdir edir. Əvvəldə də qeyd etdiyimiz kimi, dost ölkə Cənub Qaz Dəhlizi layihəsini dəstəkləyir və ona qoşulmaqla bağlı marağını ifadə edib. Macarıstan tərəfi Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının illik Nazirlər görüşlərində bir qayda olaraq nazir səviyyəsində təmsil olunur. Ötən il Buxarestdə imzalanan Azərbaycan, Macarıstan, Rumıniya və Gürcüstan Hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair müvafiq Saziş ölkələrimizin enerji sahəsində əməkdaşlığının daha da dərinləşməsində böyük əhəmiyyətə malikdir.

YAP Xətai rayon təşkilatının sədri onu da qeyd edib ki, avqustun 20-də reallaşan işgüzar səfər Macarıstanın Milli bayramı - Müqəddəs Stefan Gününə təsadüf etdiyindən dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə təşkil edilmiş ziyafətdə iştirak etdilər. Bu mühüm hadisə ölkələrimiz arasında əlaqələrin bugünkü və gələcək inkişafı barədə aydın təsəvvür yaradır. Bu, dostluq, strateji tərəfdaşlıq münasibətlərinin səmimiyyət, qarşılıqlı hörmət prinsipləri əsasında qurulduğunun göstəricisidir. Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Budapeştdə atletika üzrə dünya çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalını da izlədilər.

Vüqar Rəhimzadə bildirib ki, dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf edən Azərbaycan-Macarıstan əlaqələrinin daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindəndir. Macarıstan Azərbaycanın strateji tərəfdaşı və Avropa İttifaqında ən etibarlı tərəfdaşlarından biridir. İki ölkə arasında siyasi dialoq yüksələn xətlə inkişaf etməkdədir. Ötən il diplomatik münasibətlərimizin qurulmasının 30 illiyi qeyd edildi. 2004-cü ildə Azərbaycanın Macarıstanda, 2009-cu ildə isə Macarıstanın ölkəmizdə səfirliyi təsis olunub. Bu vaxtadək iki ölkə arasında imzalanan 50-dən çox sənəd müqavilə-hüquq bazasının möhkəmlənməsində mühüm rol oynayır.

YAP Xətai rayon təşkilatının sədri bir vacib məqamı da qeyd edib ki, Azərbaycan tarixi Zəfərimizin reallıqları fonunda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlayan zaman dost ölkələrin də bu prosesdə fəal iştirakı ilə bağlı istəyini ifadə etdi. Dövlət başçısı İlham Əliyevin Macarıstana işgüzar səfəri zamanı bu məsələyə də xüsusi diqqət yönəldildi. Belə ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərində Macarıstan şirkətlərinin fəaliyyətə başlaması müsbət addım kimi qiymətləndirildi və bu istiqamətdə daha böyük imkanların olduğu vurğulandı.

Vüqar Rəhimzadə 30 il bundan əvvəl bünövrəsi qoyulan və hazırda strateji tərəfdaşlıq münasibətlərinə qədər yüksələn Azərbaycan-Macarıstan əlaqələrinin qısa təhlili əsasında belə bir ümumiləşdirməni aparıb ki, əlaqələrin qarşılıqlı etimad mühitinin qorunması fonunda inkişaf etdirilməsi uğurlu gələcək barədə aydın təsəvvür yaradır.

# İxtisas seçimi zamanı nələrə diqqət etmək lazımdır?

**TƏHSİL EKSPERTİ AYDINLIQ GƏTİRDİ**





"İxtisas seçimi mərhələsində üç əsas məsələyə toxunulur. Bunlardan birincisi hansı ixtisas, ikincisi hansı universitet, üçüncüsü isə ixtisasın ödənişli və ya dövlət hesabına olması məsələsidir. Bu prosesdə ən böyük problem abituriyentin seçəcəyi ixtisası dəqiqləşdirməməsidir. Bu, çox ciddi bir problemdir. Belə ki, bu gün yüzlərlə, bəlkə də minlərlə insan tanıyırıq ki, onlar ali təhsil aldığı sahə üzrə çalışmırlar. Bu, onu göstərir ki, onlar vaxtilə düzgün ixtisas seçimi etməyib və ya əmək bazarını doğru qiymətləndirməyib". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Cahid İmanlı deyib.

"Sırf ixtisasla bağlı onu qeyd edim ki, əslində, Dövlət İmtahan Mərkəzi hazırkı prosesdən xeyli qabaq ixtisas qrupları elan edir. Bildiyiniz kimi, beş ixtisas qrupu var. Abituriyentlər əvvəlcə qruplarını seçir, yəni maraq dairələrini müəyyənləşdirirlər. Abituriyentlər kodlaşdırmaya gələnə qədər istədikləri ixtisası müəyyən etməlidir"- deyə o əlavə edib.

Ekspert sözlərinə davam edərək bildirib ki, abituriyentlər adətən paytaxtda yerləşən ali təhsil müəssisələrinə üstünlük verirlər: "Hətta onlar universitetin şəhərin hansı hissəsində yerləşməsinə belə fikir verirlər. Lakin abituriyentlər ilk növbədə universitetin ixtisaslaşmış olmasına fikir verməlidir. Məsələn, əgər onlar iqtisadyönümlü ixtisas seçiblərsə, bu zaman Azərbaycan Dövlət İqtisad Universitetinə və ya xarici dil üzrə mütəxəssis olmaq istəyirlərsə Azərbaycan Dillər Universitetinə müraciət etməlidirlər. İkinci məsələ isə universitetin prestijidir. Abituriyentlər fikir verməlidir ki, onlar həmin universitetdə ali təhsili başa vurduqdan sonra işlə təmin olunmaq məsələsi nə dərəcədə önəmlidir. Bu baxımdan özəl universitetlər içində Xəzər Universitetinin reytinqi daha yüksəkdir. Ona görə də yüksək bal toplamış abituriyentlərin həmin universiteti seçməsi təsadüfi deyil.

Üçüncü məsələ olan təhsili ödənişli və ya dövlət hesabına başa vurmaq da mühüm rol oynayır. Çünki əvvəlcə ödənişli ixtisas seçib daha sonra ikinci və ya üçüncü kursdan maddi çətinlikdən dolayı universiteti tərk edən tələbələr olur. Ona görə bu məsələyə də xüsusi diqqət etməlidirlər".

*Ləman Sərraf*

# Bəşəriyyətin qurtuluşu vəhşi erməni toplumundan xilas olmaqdan keçir

Ermənilər bu bölgəyə köçürüləndən hədəf və məqsədləri azərbaycanlılara qarşı soyqırımı aktları törətmək olub. Xaricdən aldıqları siyasi, hərbi dəstəklə çirkin məqsədlərinə nail olmuşlar. Nəticədə, iki yüz il ərzində 2 milyondan çox azərbaycanlı erməni vəhşiliyinin qurbanı olmuş, yüzlərlə şəhər və kənd dağıdılaraq yer üzündən silinmişdir. Erməni vəhşi toplumu azğın niyyət və məqsədlərini geniş formada həyata keçirmək üçün "böyük Ermənistan" yaratmaq kimi şovinist, həm də düşüncəsiz ideya irəli sürüb, onu həyata keçirməyə çalışmışlar. Məhz buna görə 1887-ci ildə Cenevrədə "Qnçaq" təşkilatı 1890-cı ildə isə Tbilisidə "Daşnaksütyun" partiyasını yaratmışlar. Eləcə də 1895-ci ildə isə Nyu-York şəhərində "Erməni Vətənpərvərlər İttifaqı"nı və "ASALA" erməni terror təşkilatlarını yaratmışlar. Bu cür ağılsız ideyanın davamı olaraq Bakı, Gəncə, Naxçıvan və Qarabağda erməni təşkilatının ideoloji-siyasi ideyalarının təbliği üçün rezidentura yaratmışlar. İlk dəfə ermənilər Qarabağ məsələsini 1967-ci ildə qaldırmağa çalışsalar da, o zaman çirkin niyyətlərini reallaşdıra bilməmişlər. Hətta Qarabağı Azərbaycandan qopararaq Ermənistana birləşdirmək xülyası ilə 45 min erməni imzasını rəsmi Moskvaya təqdim etmişlər. Amma rəsmi Moskva Qarabağın Azərbaycandan zorla qopardılaraq Ermənistana verilməsi ilə Azərbaycan xalqının milli müstəqillik mübarizəsinin baş qaldıra biləcəyindən qorxaraq ermənilərə öz yerlərini göstərmişdir.




Digər tərəfdən, Kreml ermənilərin iddialarına dəstək verməklə SSRİ məkanında olan müxtar respublikaların və vilayətlərin də müstəqilliyə can ata biləcəklərindən narahatlıq keçirmişdir. Məhz bu və digər amillər ermənilərin Qarabağa iddialarının imperiya tərəfindən reallaşmasını puça çıxarmışdır. Amma sonrakı mərhələlərdə, xüsusilə də, 1987-ci ildə Mixail Qorbaçovun SSRİ məkanında yenidənqurma siyasəti ermənilərin yenidən Azərbaycan torpaqlarına göz dikməyə həvəsləndirmişdir. O zaman SSRİ iqtisadi sferasının başbilənlərindən olan M.Qorbaçovun köməkçiləri Aqanbekyan və Şahnazaryan ermənilərin separatçı planlarının baş tutmasına xüsusi dəstək verənlərdən olmuşlar. Sonralar separatçı meyillərin konkret proqram halına salınmasında SSRİ prokurorluğunun baş müstəntiqi Qdlyan, rəssam Tiqranyan, 1992-ci il fevralın 26-da ermənilərin Xocalıda törətdikləri soyqırımında uşaq qatili olması ilə öyünən, "Ocaq" kitabının müəllifi Zori Balayan, Xankəndidə keçirilən ilk mitinqlərin təşkilatçılarından olan Silva Kapitukyan və digərlərinin xüsusi rolu olmuşdur. Erməni ideoloqlarının yaratdıqları terrorçu təşkilatların əsas vəzifələri Osmanlı İmperiyası və indiki fars-molla rejiminin nəzarəti altında olan torpaqlardan qaçmış ermənilərin yaşadığı əraziləri birləşdirmək üçün bütün vasitələrdən, ən əsası isə qiyam və terror aktlarından geniş istifadə etmək olmuşdur. "Qnçaq" partiyasının proqramı xüsusilə bu fikri ifadə edirdi: "Bütün şəraitlərdə türkləri və kürdləri məhv etmək və öz xalqının rifahına xəyanət etmiş ermənilərə aman verməyərək, onlardan qisas almaq".

## "Daşnaksütyun" nasist tipli partiya olub

Faşist Hitlerin yaratdığı Nasist Partiyasının ideologiyasına əsaslanan və eyni proqrama malik olan "Daşnaksütyun"un girişi bu sözlərlə başlayır: "Azərbaycanlılara və türklərə rəhm edən erməni ən ağır cəzaya layiqdirlər. "Böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün terror və iğtişaşlardan istifadə etmək, lazım gəldikdə erməni qızlarını maddi cəhətdən imkanlı və vəzifəli azərbaycanlıların yatağına göndərməkdən abır-həya etməkdən çəkinməli". Daşnaksütyun partiyasının məqsədi bunlardır: 1) Silahlı qiyam, 2) Yalnız ermənilər arasında yox, bütün xalqlar arasında inqilabi fikrin formalaşması üçün intensiv iş görmək, 3) Ermənilərin silahlanması və təşkilatlanması, 4) Hökumət adamlarına və idarələrinə qarşı terror və onların məhv edilməsi. "Bu məqsədə nail olmaq üçün hər şeyə icazə verilir; təbliğat, terror, azğın partizan müharibələri". Daşnaksütyun patiyasının fəaliyyətini ardıcıllıqla izləyən gürcü yazıçısı Karibi 1919-cu ildə ağrı hissilə yazırdı: "Daşnaklar gələrkən özləri ilə milli nifrət toxumu gətirdilər. Belə bir toxumlar səpilmiş torpaq üzərində erməni - müsəlman qan davası, erməni və gürcü müharibəsindən başqa bir şey bitə biiməzdi". Bu, elə bir təşkilat idi ki, Rusiya imperiyasının hakim dairələri ilə birlikdə Qafqazda inqilabi və milli azadlıq hərəkatını boğmağa çalışmışdı.. Bunun nəticəsi olaraq 1905-ci ildə ilk erməni - azərbaycanlı qarşıdurması baş vermişdir. 1907 və 1912-ci illər ərzində Osmanlı İmperiyası ərazilərindən və irandan təqribən yarım milyon erməni Qars, İrəvan və Yelizavetpol qəzalarına köçürüldü. Bölgədə etnik qarşıdurmaları alovlandıraraq hegemonluğu əlinə almaq məqsədi güdən Rusiya hökuməti əhalinin bu axınına susaraq, dəstək verdi. Ermənilərin Azərbaycan ərazilərinə köçürmələrinə baxmayaraq, azərbaycanlılar bu ərazilərdə sayca ermənilərdən üstünlük təşkil etmişdilər. Məsələn, 1886-cı ildə Gəncə quberniyasının Zərgəzur qəzasında ki, 326 kənddən yalnız 81-i erməni kəndi olmuşdur. irəvan qəzasında 66 faizi azərbaycanlılardan, cəmi 34 faizi ermənilərdən ibarət olmuşdur. Bu ermənilərin çoxluq təşkil etməsi məqsədi ilə azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keşirilməsinə həvəsləndirmişdir. Bu qəliamlarda ermənilər çar Rusiyasi tərəfindən gizli silahlandırılmışlar.




## Bölgənin sakitliyi ermənilərin bu ərazilərə köçürülməsi ilə pozuldu

İlk dəfə ermənilərin bugünkü Ermənistan ərazisinə gəlməsi 1475-ci ilə (XV əsr) təsadüf edir. Matendaranda saxlanılan kupçaya (mülkiyyət sahibliyini təsdiq edən sənəd) görə, 1431-ci ildə Ağqoyunlu padişahı Yaqubun nümayəndəsi Əmir Rüstəm Makulu Qriqoriyə 530 min Təbriz dinarına İrəvan xanlığının 7 kəndini - Vaqarşapat (Eçmiadzin-Üçkilsə), Aştarak, Batrinc, Noragavit, Aqunatun, Kirəcli və Muğni kəndlərini satdı. İrəvan türklərinin faciəsi də elə həmin tarixdən başlayır. Varlanmış haylar XIX əsrin əvvəllərində artıq 60 qədim Oğuz kəndini pulla alaraq erməniləşdirə bilmişdilər. Məhz indiki Ermənistan adlanan qondarma dövlət Rus İmperiyasının yardımı ilə həmin 60 türk kəndinin bazasında yaradılmışdır. Sonralar məskunlaşma siyasətini genişləndirən ermənilər tədricən Zəngəzur ərazisinə və İrəvanın ətrafına köç etməyə başlayıblar. O vaxta qədər nəinki Qarabağda, eləcə də, indiki Ermənistan ərazisində hər hansı bir erməni yaşayış məskəni olmamışdır. 1525-ci ildə Osmanlı İmperiyası Naxçıvanı və Dərələyəzi öz torpaqlarına qatandan sonra uçota alınma aparılıb. 9 kənddə cəmi 172 erməninin yaşadığı qeyd olunub. Min illər boyu Azərbaycan dövlətlərinin tərkib hissəsi olmuş Naxçıvan diyarı XVI əsrin sonunda (1588-1603-cü illər) və XVIII əsrin əvvəllərində (1724-1735-ci illər) Osmanlı İmperiyasının tərkibinə keçmiş və burada osmanlı idarə sistemi tətbiq edilmişdir. İki nüsxə hazırlanan "müfəssəl dəftər" qanuni qüvvəyə mindikdən sonra, bir qayda olaraq, onun üzərinə hakimiyyətdə olan sultanın tuğrası çəkilir, tuğradan aşağıda isə "müfəssəl dəftər"in hansı tarixdən qüvvəyə minməsini göstərən "buyuruldu"nun mətni yazılırdı. Bəzi "müfəssəl dəftər"ə tuğra çəkilməyib. Bunun yerinə "Ya fəttah" yazılırdı. Misal üçün, 1727-ci il tarixli "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" "Ya fəttah" müraciəti ilə başlayır." Lakin həm tuğranın çəkildiyi, həm də "Ya fəttah" müraciətinin eyni vaxtda yazıldığı dəftərlər də vardır.



Bilavasitə, Naxçıvan sancağı ilə bağlı osmanlılar bir "müfəssəl dəftər" tərtib etmişdilər. 1727-ci il tarixli bu dəftər 302 səhifədir. Dəftərin bəzi səhifələri (81, 95) boşdur. Qanunnaməsi yoxdur. Xətti-siyaqət və qırma siyaqətdir. Üzərində o dövrün sultanı III Əhmədin (1703-1730) ugrası ( Əhməd şah ibn Məhməd xan əl-Müə ər aima ) çəkilmişdir.









Azərbaycanın digər' əyalət və sancaqlarının dəftərləri kimi, Naxçıvan sancağının bu "müfəssəl dəftəri"də iki nüsxə tərtib olunmuş, lakin onun, hələlik, bir nüsxəsi məlumdur. Qeyd etdiyimiz "müfəssəl dəftər"lərə görə, XVI əsrin sonlarında Naxçıvan sancağı eyniadlı qəzadan və Ağcaqala, Məvaziyi-Xatun, Mülki Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad, Şorlut və Dərənürgüt nahiyələrindən ibarət olmuşdur. XVIII əsrin 20-ci illərində isə osmanlılar Naxçıvan sancağı ərazisində Naxçıvan sancağı ilə yanaşı Ordubad sancağını da yaratmışdılar. Lakin ehtimal ki, bu sancaq müvəqqəti olarac) 1724-1726-cı iliərdə nıövcud olmuş və Naxçıvanın "müfəssəl dəftər"inin tərtibinin başa çatma ərəfəsində Ordubad sancağının saxlanılması məqsədəuyğun hesab edilməmiş, onun əhatə etdiyi ərazi isə Naxçıvan sancağının tərkibinə qatılmışdır. Bundan əlavə, osmanlılar Naxçıvan sancağı üçün ayrıca bir "müfəssəl dəftər" tərtib edərkən Zar, Zəbil və Şərur nahiyələri Naxçıvan sancağınm tərkibindən çıxarılmış və İrəvan əyalətinə birləşdirilmişdir. Bununla bərabər, Ordubad, Bazaçayı və Ağcaqala nahiyələri ləğv olunmuş, Sair Məvazi, Qışlağat və Dərələyəz adlı yeni nahiyələr yaradılmışdır. Beləliklə, osmanlıların Naxçıvan sancağının ərazisi və inzibati bölgüsündə apardıqları dəyişikliklər nəticəsində bu diyarın inzibati bölgüsündə 9 nahiyə (Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərələyəz) qalmışdır. 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"nə görə məcburi köçlər bu dövrdə də olmuşdur, "Müfəssəl dəftər"dəki bəzi qeydlər hətta onun səbəbinin izahına belə yer vermişdir: bəzi kəndləri məzrəə kimi qeyd edən katiblər ounun səbəbini o kənddə osmanlılardan əvvəl yaşamış insanların qızılbaş olduqları üçün kəndlərini tərk etdiklərini və bir daha geri dönməyəcəkləri ilə izah etmişdilər. Bu cür qeydlər Dərələyəz nahiyəsinin Şahyurdu, Ərdiş, Kərəkölük və Sallı kəndləri üçün edilmişdir.

## Erməni toplumu vandalizmə meyillidir

İstər ərazisi, istərsə də yaşayış məskənlərinin sayına görə, Dərələyəz nahiyəsi bu dövrdə Naxçıvan sancağının ən böyük ərazi inzibati vahidi olmuşdu. Burada 1727-ci iidə 99 kənd və 5 məzrə qeydə alınmışdı. Bunların da yalnız 68-i məskun olmuş, digərlərində isə bu dövrdə heç kim yaşamamışdır. XVI əsrin sonlarında əraziinzibati vahidi kimi mövcud olmamış Dərələyəz nahiyəsinə tabe olan 36 kənddə çox az sayda - cəmi 216 vergi mükəlləfiyyəti daşıyan erməni yaşamışdır. Bu kəndlərdən isə yalnız üçü - Bazarçayı və Zebil nahiyələrinə tabe olan Kələdək, Yengicə, Moz - mövcud olmuşdu (Bax: İrəvan əyalətinin müfəssəl dəftəri, N° 633, s. 156, 332). Digər 33 kənd isə, ehtimal ki, XVIII əsrin əvvəllərində yaranmış kəndlərdir. Ermənilərin bu kəndlərdə yerləşmələrinə gəldikdə, onu qeyd edə bilərik ki, adlarını çəkdiyimiz Kələdək, Yengicə və Ləz kəndlərində XVI əsrin sonunda ermənilər yaşamamışdılar. Onlar buraya, həmin kəndlərin türk-müsəlman əhalisi öz yerlərini tərk etdikdən sonra məskunlaşmışdılar. Ermənilərin bu üç kəndə yerləşmə dövrünə gəldikdə isə, onların saylarının az olmasına əsaslanaraq, onların bu kəndlərə XVIII əsrin əvvəllərində yerləşdiyini deyə bilərik. Dərələyəz nahiyəsinin ermənilər yaşayan 33 kəndinin (Arpa, Amaqu, Civə, Aynazor, Haviç, Caqazur, Üstün, Hurevadin, Ayısəsi, Gələnçevir, Ərdepin, Ərdiş, Xors, Ortaköy, Züyrək, Keşiş Başköy, Kisək, Ərgez, Kükivans, Azadək, Zeytə, Hərhər, Kolanı, Qurd Əmir, Gümüşcük, Ərnic, Çul, Kömüır, Kabud, Qındevas, Horadüz) adlarından da göründüyü kimi, bir çoxları türk-müsəlman əhali tərəfindən salınmış və oniar buralardan köçdükdən sonra, ermənilər XVII əsrin sonları və yaxud XVIII əsrin əvvəllərində buralara yerləşmişdilər. 1. AXURA kəndi 2. HƏMZƏLİ KƏNDİ KƏRƏMPA MƏZRƏƏSİYLƏ. SÜBHAN KƏNDİ KOSALI KƏNDİ 3. HAVİC KƏNDİ 4. MORAVİK KƏNDİ 5. HEŞİN KƏNDİ 6. YAYCI KƏNDİ 7. ÇAGAZUR KƏNDİ 8. XAÇİK KƏNDİ 9. KƏLƏDƏK KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 10. KƏNZƏK KƏNDİ 11. VEYSƏLLİ KƏNDİ 12. ƏYƏR KƏNDİ 13. DAKZİD KƏNDİ 14. ARPA KƏNDİ (17 qeyri-müsəlmanın siyahısı) 15. AMAĞU KƏNDİ (13 qeyri-müsəlmanın siyahısı) 16. ÇİVƏ KƏNDİ (5 qeyri-müsəlmanm siyahısı) 17. QIZILGÖZ KƏNDİ, BAŞQA ADI ŞƏKƏRBƏYLİDİR. 18. AYNAZOR KƏNDİ (22 qeyri-müsəlmanın siyahısı) 19. BAĞÇACIQ KƏNDİ 20. RİND KƏNDİ Kənddə heç kim yaşamır. 21. QOZLUCA KƏNDİ Kənddə heç kim yaşamır. 22. KƏRƏKOR KƏNDİ Kənddə heç kim yaşamır. 23. ÇANAQÇI KƏNDİ Kənddə heç kim yaşamır. 24. KEŞİŞVİRANI KƏNDİ Kənddə heç kim yaşamır. 25. URNUT KƏNDİ İllıam Əliyev Kənddə heç kim yaşamır. 26. XINS KƏNDİ 27. CƏFƏRLİ KƏNDİ Kənddə heç kim yaşamır. 28. QAŞQA KƏNDİ Kənddə heç kim yaşamır. 29. ƏNKÜZİ KƏNDİ Kənddə heç kim yaşamır. 30. TELSİN KƏNDİ Kənddə heç kim yaşamır. 31. ÇAVUŞCUQ KƏNDİ Kənddə heç kim yaşamır. 32. ƏRDALAS KƏNDİ Kənddə heç kim yaşamır. 33. ƏYRİLİ KƏNDİ Kənddə heç kim yaşamır. 34. KÜNNÜD KƏNDİ Kənddə heç kim yaşamır. 35. ABANA KƏNDİ XUBİK MƏZRƏƏSİYLƏ 36. VARTANES KƏNDİ 37. VAHSNİ KƏNDİ 38. AĞCAVƏNK KƏNDİ Kənddə heç kim yaşamır. 39. TƏRƏTÜM KƏNDİ Kənddə heç kim yaşamır. 40. AĞKİLSƏ KƏNDİ Kənddə heç kim yaşarnır. 41. QIZQALASI KƏNDİ Kənddə heç kim yaşamır. 42. QUTYOL KƏNDİ SƏDƏRƏK QIŞLASI MƏZRƏƏSİ Bu məzrəə əvvəllər kənd imiş. Əhalisi əkinçiliklə məşğul olub, xoş həyat sürürmüş. Amma qarışıqlıq vaxtı qaçıb getdikləri üçün kənddə bir kimsə qalmamış və ona görə də məzrəə olaraq qeydə alınmışdır 44. MEYDAN KƏNDİ, BAŞQA ADI ƏLİ QIŞLAĞIDIR. 45. ƏLƏYƏZ KƏNDİ (8 qeyri-müsəlmanın siyahısı) ÜSTÜN KƏNDİ (7 qeyri-müsəlmanın siyahısı) Başqa adı Daşagirən olan Üstün kəndi yaxınlığındakı Anabad (?) vəngi. 46. MƏNDƏRVANIS MƏZRƏƏSİ Bu məzrəə əvvəllər kənd imiş. 47. DİBİ MƏZRƏƏSİ Bu məzrəə əvvəllər kənd imiş. Əcəm (Səfəvilər) dövründə xarabalığa döndüyü və kənddə insan yaşamadığı üçün məzrəə olaraq qeydə alınmışdır. 48. QARAQAYA MƏZRƏƏSİ 49. HUREVADİK KƏNDİ (6 qeyri-müsəlmanın siyahısı) 50. AYISƏSİ KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 51. GƏLƏNÇEVİR KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 52. ƏRDƏPİN KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 53. ŞAHYURDU MƏZRƏƏSİ Əvvəllər kənd imiş. 54. [ŞAHYURDU] MƏZRƏƏSİNDƏ AUNAN RAHDARLIQ BACI - İLDƏ 55. ƏRDİŞ KƏNDİ (3 qeyri-müsəlmanın siyahısı) 56. KƏRƏKƏLÜK MƏZRƏƏSİ Bu məzrəə əvvəllər kənd imiş. 57. SALLI MƏZRƏƏSİ Bu məzrəə əvvəllər kənd imiş.[Kəndin] əhalisi qızılbaş (şiə) olduğu üçün qaçıb getmişdi. 58. XORS KƏNDİ (6 qeyri-müsəlmanın siyahısı) 59. ORTAKÖY KƏNDİ (6 qeyri-müsəlmanın siyahısı) 60. ZÜYRƏK KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 61. KEŞİŞ KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 62. BAŞKÖY KƏNDİ Kənddə yaşayan qeyri-müsəlmanlar (20 qeyri-müsəlmanın siyahısı) 63. KİSƏK KƏNDİ (3 qeyri-müsəlmanın siyahısı) 64. YENGİCƏ KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 65. VARTANOL KƏNDİ Kənddə heç kim yaşamır. 66. MORZAV KƏNDİ 67. ƏRGƏZ KƏNDİ (4 qeyri-müsəlmanın siyahısı) 68. MƏLİKŞAH KƏNDİ 69. OLAN KÜKİVANS KƏNDİ (3 qeyri-müsəlmanın siyahısı). 70. MOZ KƏNDİ 71. ÇAĞATAY KƏNDİ 72. EYNİ ADLIİKİ DƏDƏLİ KƏNDİ Kəndlərdə heç kim yaşamır. 73. AMAĞU KƏNDİ Kənddə heç kim yaşamır. 74. PUŞADİZ KƏNDİ, BAŞQA ADI DAYLAQLIDIR. 76. ƏXİLİ KƏNDİ 77. ZEYTƏ KƏNDİ (3 qeyri-müsəlmanın siyahısı) 78. SOYULAN KƏNDİ 79. HƏRHƏR KƏNDİ 80. KOLANI KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 81. QOÇUBƏY KƏNDİ 82. TODUN KƏNDİ Kənddə heç kim yaşamır. 83. BİRƏK KƏNDİ Kənddə heç kim yaşamır. 84. QALABƏYİ KƏNDİ Kənddə heç kim yaşamır. 85. PİRHƏSƏNLİ KƏNDİ Kənddə heç kim yaşamır. Kənddə heç kim yaşamır. 87. QURD ƏMİR KƏNDİ (1 qeyri-müsəlman) 88. GÜMÜŞCÜK KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 89. POR KƏNDİ 90. ƏRNİC KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 91. ÇUL KƏNDİ (3 qeyri-müsəlmanın siyahısı) 92. PAŞALI KƏNDİ 93. KÖMÜR KƏNDİ (4 qeyri-müsəlmanın siyahısı) 94. KABUD KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 95. AXTA KƏNDİ 96. QINDEVAS KƏNDİ (2 qeyri-müsəlmanın siyahısı) 97. QAYALI KƏNDİ 98. MARTİROS KƏNDİ 99. BİRƏK KƏNDİ Cəmi: 102 kənd 31 kənddə heç kim yaşamır. ERMƏNİLƏRİN KƏND VƏ KİÇİK QƏSƏBƏLƏRDƏ QƏTLƏ YETİRDİKLƏRİ ƏHALİNİN SİYAHISI 1. Amooğiu karyesi 300 2.000



2. Haviş karyesi 70 250 " 3. Ardeş karyesi 70 500" 4. Kurbankesen kanyesi 80 250" 5. Gürcülü karyesi 40 300" 6. Demirciler karyesi 40 300" 7. Kömürlü karyesi 60 400" 8. Kabut karyesi 40 250 Haziran sene 1335 9. Derekent karyesi 50 300" 10. Çul karyesi 2.500 7.000 ' 11. Meredüz karyesi 70 400" 12. Köş karyesi 1.000 4.000 ' 13. Kaysırı karyesi 35 200 " 14. Leylikaçan karyesi 80 400 " 15. Gümüşhan karyesi 100 600 " 16. Kendidas karyesi 90 450 " 17. Tarab karyesi 70 285" 18. Türab karyesi 90 500 19. Çıraklı karyesi 30 200 " 20. Arınc karyesi 70 350" 21. Çaykent karyesi 100 600" 22. Kayalı karyesi 80 400" 23. Ümmürzakışlak karyesi 30 250" 24. Zeydencabacumah 60 200 25. Horhor karyesi 200 1.500 " 59 26. Güdenli karyesi 300 2.500 " 27. Kindere karyesi 250 2.000 " 28. Başahtuznadar karyesi 40 250 " 29. Navl [Novlu] karyesi 60 300 " 30. Ergez karyesi 400 3.000 " 31. Karavenk karyesi 70 400 " 32. Zeyrek karyesi 90 2.000 33. İssisu karyesi 50 250 " 34. Ceranlı karyesi 30 180 " 35. Cani karyesi 100 1.500 " 36. Kabanlı karyesi 100 2.000 " 37. Kotuhvenk karyesi 70 1.000 38. Keidüz karyesi 100 2.500 " 39. Karakaya karyesi 70 1.000 " 40. Kavşuk karyesi 50 500 " 41. Kalayer karyesi 70 550 " 42. Günayvenk karyesi 30 200 " 43. Alayaz karyesi 250 3.000 " 44. Akkent karyesi 70 300 " 45. Yukarıakkent karyesi 90 900 " 46. Hurbadık karyesi 90 950 " 47. Hurdis karyesi 1.500 6.000 " Yekun: 7.185 50.455 1605-ci ildən başlayaraq ermənilər tədricən Azərbaycan ərazilərinə girmək üçün fəaliyyətə keçirlər.

(ardı var)

***İ.ƏLİYEV***

# TB2 PUA: Rusiya özünü müdafiə edir, Ukrayna qazanır

**Türkiyə mətbuatı Rusiyanın Selçuk Bayraktarın TB2 Pilotsuz Uçuş Aparatlarına qarşı özünü müdafiə etdiyi təqdirdə, ukraynalı sənətçinin Baykarın hekayəsi ilə müsabiqə qalibi olmasından yazır.**

BAYKAR İdarə Heyətinin sədri Selçuk Bayraktar, TB2 Pilotsuz Uçuş Aparatları və Baykar haqqında hekayəsini izah edən ”Özdemir Bayraktar Milli Texnologiya Mərkəzi üçün İncəsənət Quraşdırması” müsabiqəsinin qalibi ukraynalı rəssam olub. Rusiya-Ukrayna müharibəsinin gedişatını dəyişdirən Bayraktar TB2 Pilotsuz Uçuş Aparatları dünyanın kabusuna çevrilib.

Qeyd olunur ki, Baykarın hekayəsini izah edən orijinal quraşdırma Özdemir Bayraktar Milli Texnologiya Mərkəzindəki Ar-Ge binasının qarşısında yer alır. Sözügedən ərazidə sərgilənməsi planlaşdırılan quraşdırma üçün Baykar tərəfindən beynəlxalq memarlıq layihə müsabiqəsi təşkil edilib. Ukraynalı rəssam Oleksandr Nikitenko Baykarın hekayəsindən bəhs edən ”Özdəmir Bayraktar Milli Texnologiya Mərkəzi üçün İncəsənət Quraşdırması” müsabiqəsinin qalibi olub.






Müsabiqəyə Türkiyədən və xaricdən bir çox memar və rəssam öz layihələri ilə qatılıb. Baykarın rəsmi saytında yer alan məlumata görə, nəticələri 23 iyul 2022-ci ildə ictimaiyyətə açıqlanan ”Özdəmir Bayraktar Milli Texnologiya Mərkəzi üçün İncəsənət Quraşdırması” müsabiqəsinin qalibi ukraynalı rəssam Oleksandr Nikitenko olub. Baykarın mövzu ilə bağlı açıqlamasında ”Müsabiqədə qalib gələn memar və rəssam Oleksandr Nikitenkonun quraşdırma işi orijinal və qeyri-ənənəvi dizaynı baxımından bizim dünəndən bu günə və gələcəyə gedən yolumuzu simvollaşdırır” deyilir. ”Bayraktar TB2 Pilotsuz Uçuş Aparatları iştirak etdiyi hər döyüşdə oyunu dəyişdirən güc çarpanıdır. Bizim ikonik quyruq dizaynı quraşdırmanın əsas dizaynıdır” ifadələri də burada yer alır.

Baykarın verdiyi məlumata görə, quraşdırma işləri üç əsasla həyata keçirilib. Birincisi, əsərin orijinal dizaynıdır. Əsər Bayraktar pilotsuz uçuş aparatları vasitəsilə döyüş doktrinalarını dəyişdirən platformaları inkişaf etdirən Baykarın çətin yolundan ilham alaraq hazırlanmışdır. Digər tərəfdən, quraşdırma Baykarın bütün dünyadakı uğurlarına əsaslanır. Bu əsər həm də tamaşaçılara Baykarın haqsızlıqlara qarşı səmaya etibarlı şəkildə qalxan möhtəşəm bir qılınc olduğunu bildirir. Bundan əlavə, bu post-modern quraşdırmada Baykarın milli və xüsusi olaraq inkişaf etdirdiyi Bayraktar Pilotsuz Uçuş Aparatlarının axtarış-xilasetmə, kəşfiyyat və hücum kimi müxtəlif və çətin tapşırıqları uğurla yerinə yetirdiyi də əksini tapıb.






Vurğulanır ki, Türkiyənin hava hücumundan müdafiə şirkəti BAYKAR Teknoloji Ukraynanın Rusiyaya qarşı müdafiə cəbhəsində güclü varlıq nümayiş etdirir. Milli istehsal olan texnika Baykar tərəfindən hazırlanan Bayraktar Pilotsuz Uçuş Aparatlar Ukraynanın işğalçı dövlət Rusiyaya qarşı müqavimətinin simvoluna çevrilib. Rusiyanın hücumlarına qarşı müdafiə yaradan Bayraktar TB2 Pilotsuz Uçuş Aparatları Ukrayna vətəndaşları və səlahiyyətliləri tərəfindən böyük diqqət çəkir.

Bayraktar TB2 Pilotsuz Uçuş Aparatlar Ukrayna ordusu tərəfindən müdafiə məqsədilə fəal şəkildə istifadə olunur. Ukrayna, Litva, Polşa, Latviya, Norveç və Kanada ilə yanaşı, bir çox yerlərdə xalq tərəfindən Bayraktar TB2-lərin alınması və Ukrayna ordusuna bağışlanması üçün yardım kampaniyaları təşkil edilib. Məlumata görə Litva, Ukrayna və Polşadakı kampaniyalardan toplanan ianələri qəbul etməyən Baykar, Bayraktar TB2 Pilotsuz Uçuş Aparatlarının alınması üçün toplanan yardımı Ukrayna xalqının humanitar ehtiyaclarını qarşılamaq üçün bağışlayıb.

***Tərcümə- Mətanət Məmmədova***

# “Ermənilər şərtlərə boyun əyməyə məcburdurlar”



“Çox təəssüf ki, BMT TŞ-nın iclasında iştirak edən dövlətlərin əksəriyyəti birmənalı mövqe tutaraq, ”separatizmə yox!” mövqeyindən çıxış etmədi. Erməni hayhaşirinin təsirinə düşən bir neçə dövlətin təmsilçisi Qarabağ ermənilərinin ”humanitar fəlakət” içərisində olduğunu iddia etdilər və BMT Beynəlxalq məhkəməsinin ədalətsiz qərarını icra etməyə çağırdılar”. Bunu ”Alyans” strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov ”Səs” qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, anlamaq istəmədilər ki, problem ”humanitar yardım” və onun çatdırılması deyil: ”Əgər belə olsaydı, əldə olunan razılaşma icra olunar və əvvəlcə Ağdam-Xankəndi və sonra Laçın dəhlizi humanitar yardımların çatdırılması üçün istifadə olunardı. Bundan sonra Yevlaxda görüşən Azərbaycan hakimiyyətinin və Qarabağ ermənilərinin təmsilçiləri ermənilərin hüquq və təhlükəsizlik problemlərini müzakirə edərdilər. Ancaq ermənilər bu razılaşmaları pozdular və Qarabağ erməniləri ”müstəqillik”, ”öz müqəddəratını təyinetmə” kimi qəbul edilməz separatist şüarları səsləndirməyə davam etdilər. Buna kəskin təpki verməli olan nüfuzlu beynəlxalq qurumun təmsilçiləri özlərini kar və kor yerinə qoydular, ermənilərin sülh sazişinin imzalanmasını düyünə salan hərəkətlərini görməzdən gəldilər. Beynəlxalq birliyin bu mövqeyi Qarabağ ermənilərini hələ də ümidləndirir və onlar havadarları ilə birlikdə ”humanitar fəlakət” şousunu davam etdirirlər.

Şübhə yoxdur ki, bu şou hələ bir müddət də davam edəcək və ermənilər bu məsələnin üçüncü dəfə BMT TŞ-da müzakirəsinə nail olmağa çalışacaqlar. Bir şey aydındır. Azərbaycan öz ədalətli mövqeyindən qətiyyən güzəştə getməyəcək və separatçılara qarşı mübarizəsini dönmədən davam edək. Ümid edək ki, ABŞ başda olmaqla Qərb dövlətləri mövcud vəziyyəti, nəhayət, obyektiv qiymətləndirəcəklər və Qarabağ ermənilərinin və Ermənistanın pozuculuq fəaliyyətinə layiq olduğu münasibəti bildirəcəklər. Əgər belə olmasa, ermənilərin özlərinə məxsus ”istedadla” təqdim etdikləri ”humanitar fəlakət” şousu dünya birliyini tam bezdirənə qədər hələ bir müddət davam edəcəkdir”.

***GÜLYANƏ***

# Qarabağdan qaçış planı...

*Separatizmə dəstək verən Rusiya vətəndaşlığı olan şəxslər bölgəni necə tərk edir?*





Ermənistanın son ümidi də puç oldu, Azərbaycanı "humanitar fəlakət"lə vurmağa çalışan İrəvan özü tələyə düşdü, bütün proseslər, qurulan tələlər, "möhtəşəm" ssenarilər bir həmlədəcə iflasa uğradı. BMT Təhlükəsizlik Şurasına qədər sürüklənən proseslərdən məğlub ayrılan Ermənistan hələ də yollar arayır. Gah Azərbaycan-Ermənistan şərti sərhədində təxribatlar törətməyə cəhd edir, gah Qafan şəhərindəki uzun müddətdən sonra aeroportunu, əslində isə helikopterlərin enməsi üçün meydançanı xatırladan düzəngaha birmotorlu kiçik təyyarələri endirməklə hava sərhədimizi pozur, gah Avropa İttifaqından olan müşahidəçilərin dili ilə Azərbaycana təhdidlər yağdırır, gah da Qarabağdakı separatçıları qızışdırmaqla onları yeni müharibəyə sövq edir. Amma bütün bunların yetərli olmadığını rəsmi İrəvan özü də bilir. Vaxt da getdikcə daralır, sülhməramlıların yeni planlarının işə düşəcəyini gözləmək də erməniləri qane etmir.

Separatçılar arasında qarşıdurma isə özünün pik həddinə çatıb. Arayik Arutyunyan aradan çıxmaq üçün yollar axtarır, ən azından öz canını qurtarmaq naminə "kreslosu"nu da qurban verməyə hazırdır. Kremlin adamı Ruben Vardanyan isə artıq perspektivi olmayan "hakimiyyət"dən öz payını qoparmaq barədə baş sındırır, itirdiklərini bərpa etməyə çalışır. Rubenin "Qarabağ" planının iflası onu Arayiklə daha sərt davranmağa vadar edib. Artıq sülməramlılardan da Vardanyana haray yoxdur. O artıq canının hayına qalıb. Vaxtilə Qarabağda məskunlaşdırılmış Rusiya vətəndaşlarının bölgəni tələsik tərk etmələri separatçıların "kürkünə birə salıb".

Əldə etdiyimiz məlumata görə, "Laçın" sərhəd-buraxılış məntəqəsində erməni əsilli şəxslərin sərbəst keçidi növbəti dəfə təmin edilib. Erməni əsilli vətəndaşlar Xankəndindən gəlib Gorus istiqamətinə keçib. "Laçın" sərhəd-buraxılış məntəqəsindən ümumilikdə 60 şəxs Azərbaycandan Ermənistana keçib. Əvvəlcə həmin şəxslərin sənədləri yoxlanılıb və sərbəst hərəkətləri təmin olunub. Sərhəd-buraxılış məntəqəsindən keçərək Ermənistan istiqamətində gedənlər, əsasən, Azərbaycan ərazisində separatizmi alovlandırmağa çalışan, ona dəstək verən şəxslərdir. Həm onlar, həm də arxalarında duranlar anlayıblar ki, Azərbaycanla bağlı bu çirkin oyunu davam etdirə bilməyəcəklər, ona görə də Qarabağı tərk etmək məcburiyyətində qalıblar.

Rəsmi Bakı ən müxtəlif səviyyələrdə daim bəyan edib ki, yalnız Azərbaycan qanunlarına hörmətlə yanaşan, bu qanunlarla yaşamağı qəbul edən şəxslər burada qala bilərlər. Bu şərti qəbul etməyənlər üçün qapılar açıqdır, buranı tərk edib istədikləri yerdə yaşaya bilərlər. Bu gün Qarabağı tərk edərək Ermənistana gedən şəxslərin əksəriyyəti Rusiya vətəndaşlığını qəbul etmiş, Rusiya pasportu daşıyan insanlardır. Bütün bunlar onu göstərir ki, Rusiyanın Dnestryanı, Donbas kimi ssenariləri Azərbaycanda keçmədi, "Rus dünyası" iddiası iflasa uğradı. Sadəcə, bunları prosesin başlanğıcı da adlandırmaq olar. Hələlik, proses sanki könüllülük əsasında həyata keçirilib. Vaxt daraldıqca Azərbaycan sərhədlərini geridə qoyanların sayının artacağı, hətta kütləvi köçün baş verəcəyi də gözlənilir.

Yerdə qalanlar Azərbaycan vətəndaşlığını qəbul edib, Azərbaycan qanunları ilə yaşaya, hətta daha yaxşı yaşaya bilərlər. Bunu qəbul etməyənlər üçün isə sərhəd açıqdır, istədikləri yerə çıxıb gedə bilərlər.

Separatçıların getdikcə tükənməsi, aralarında gərginliyin artmasını ermənilərin özləri də etiraf edirlər. Qarabağ separatçıları artıq xaosun bir addımlığındadır, istənilən idarəolunmaz vəziyyət başlaya bilər. Xankəndidəki saxta "təhlükəsizlik şurasının keçmiş katibi" Arşavir Qaramyan oradakı ermənilərə xitabən "Ayılmaq və özünə gəlmək vaxtıdır. Lazımsız emosiyalara qapılmayın. Baş verə biləcək xaos müəyyən hadisə və sarsıntılara səbəb olacaq. Bu hadisələr sırasında müxtəlif qruplar arasında qanlı toqquşmaları da istisna etmək olmaz", deyib.

Ərazilərimizdə separatizmi alovlandırmağa çalışan, ona dəstək verən şəxslər, həm də arxalarında duranlar anlayıblar ki, Azərbaycanla bu çirkin oyunu davam etdirə bilməyəcəklər. Məcburi olmayan, könüllü xarakter daşıyan bu köçün davamlı olacağı gözlənilir. Yerdə qalanlar Azərbaycan vətəndaşlığını qəbul edib, Azərbaycan qanunları ilə yaşaya, hətta daha yaxşı yaşaya bilərlər.

Biz proseslərə mane olan şəxslərdən və onların arxasında duranlardan söhbət açmışkən Ermənistan ərazisində, Azərbaycan sərhədləri yaxınlığında patrul xidməti göstərən avropalıları da yada salmalıyıq. Onlar müşahidədən başqa hər işlə məşğuldurlar. Görün bu missiya öz X sosial hesabında nələr yazıb: "Ermənistan-Azərbaycan sərhədinin rayonlarına bitişik kənd və şəhərlərdə patrul xidməti həyata keçirərək, münaqişənin onların həyatına necə təsir etdiyini daha yaxşı başa düşmək üçün yerli sakinlərlə söhbət edirik. Biz onları EUMA-nın mandatı və fəaliyyəti haqqında məlumatlandırırıq. İnsanların təhlükəsizliyi üçün patrul xidməti bizim mandatımızın ayrılmaz hissəsidir". "Təhlükəsizliyini təmin edirik", deyəndə müşahidəçilər nəyi nəzərdə tuturlar. Yoxsa, Azərbaycana qarşı aparılan təxribatçı əməliyyatların arxasında duranlar elə əsasən kəşfiyyatçılardan ibarət olan Aİ-nin müşahidə missiyasının üzvləridir?

Qarabağda baş verənlər İrəvanın son dərəcə narahatlığına səbəb olub. Ruben Vardanyanın çıxışı və separatçıların lideri Arutyunyana ünvanlanan "Siz nə lider, nə də baş komandan ola bilmədiniz" bəyanatı yeni prosesdən və çox təhlükəli problemdən xəbər verir. Bu barədə Alternativ Layihələr qrupunun dərc etdiyi məqalədə də deyilir. Ermənistandan fərqli olaraq, Qarabağdakı separatçılar 100 faiz başa düşürlər ki, Azərbaycan ordusunun bölmələri bir neçə yüz metr aralıdadır. Ona görə də düşünürlər ki, onları İrəvandan yox, Xankəndidən idarə etsələr daha effektiv olar. İndiki Ermənistan hakimiyyəti bu gün ictimai etimadı çox aşağı salıb və idarəetmə qabiliyyəti çox zəifdir. Separatçılar vəziyyəti deeskalasiya etmək üçün ən qısa yol tapıblar - Qarabağda və Ermənistanda yüksək keyfiyyətli yeni hökuməti formalaşdırmaq.

Beləliklə, Ermənistan separatçılar üzərindən yeni oyunun ssenarilərini testdən keçirməyə cəhd edirlər. BMT Təhlükəsizlik Şurasında gedən müzakirələrdən bir nəticə çıxarmayan, haqsız olduğunu qəbul etməyən erməni bu dəfə başqa oyunlarla gündəmə gəlməyə çalışır. Düşünür ki, "Qarabağ", "humanitar fəlakət" ifadələrini gündəmdə saxlamaqla dünya birliyinə nəyisə sübut edə biləcəklər. Halbuki, reallıq başqadır, həqiqət Azərbaycanın tərəfindədir.

**V.VƏLİYEV**





## Avtomobil bazarında qiymət artımı nə ilə əlaqədardır?

*İQTİSADÇI-EKSPERT AÇIQLADI*

"Maşın bazarında avtomobillərin qiymətinin artımı ilə bağlı onu bildirmək istəyirəm ki, artıq yanvar ayından etibarən ölkəyə istehsal tarixi 10 ildən aşağı olan avtomobillərin idxal olunmasına məhdudiyyət qoyulmuşdu. Bu da daha bahalı avtomobillərin idxal edilməsinə səbəb olub". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eyyub Kərimli deyib.



Onun sözlərinə görə, bu, öz növbəsində, ölkədə hazırda istismarda olan köhnə avtomobillərin qiymətinin artmasına təsir edib: "Lakin baxmayaraq ki, bu ilin altı ayında ötən ilin eyni dövrü ilə müqayisədə ölkəyə avtomobil idxalında 37 faiz artım baş vermişdi. Bu da onu deməyə əsas verir ki, avtomobil parkı yenilənməyə davam etsə də, lakin gələn avtomobillərin qiyməti artıq daha bahadır. Çünki avtomobillərin istehsal ili daha yenidir. Həmçinin, bu avtomobillərə gömrük rüsumları tətbiq edilərək ölkədə qiyməti daha bahalaşır. Bu da əldə olan köhnə avtomobillərin qiymətini artırır. Çünki yenisi gəlmədiyi üçün həmin avtomobillərə aşağı təbəqənin tələbatı artır. Bəzən də süni qiymət artımına gətirib çıxarır".



Eyyub Kərimli sözlərinə belə davam edib: "Ümumiyyətlə, sentyabr ayı ərəfəsidir və hər il bu vaxtda avtomobil qiymətlərində artım baş verir. Rayonlardakı fermerlər təsərrüfatdan əlavə gəlir əldə edərək avtomobillərini yeniləyirlər, yaxud universitetə qəbul olmuş tələbələrə valideynləri avtomobil hədiyyə edir. Bu da tələbə öz təsirini göstərir və köhnə avtomobillərin qiymətində artım baş verir".

**Ayşən Vəli**

# BMT Təhlükəsizlik Şurasındakı fiaskoya görə

# ERMƏNİSTANDA REZONANS

**BMT Təhlükəsizlik Şurasının məhz Ermənistanın xahişi ilə Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti müzakirə etmək üçün toplaşması fonunda rəsmi Bakıya İrəvanın təzyiq cəhdi baş tutmadığından işğalçı ölkədə qarışıqlıqlar daha da artıb. Ermənistanın müttəfiqləri tərəfindən sülh prosesinə müdaxilənin qarşısı məhz Azərbaycan tərəfindən alındığı səbəbindən, heç bir sənəd qəbul edilmədiyi səbəbindən, hətta dünya mətbuatının belə bu hadisəyə az əhəmiyyət verdiyindən Ermənistanda rezonans yaranıb.**








Bəlkə də, elə zənn edənlər var idi ki, Paşinyan "qələbə" iddiasında olub. Amma bir çox erməni yaxşı başa düşürdü ki, erməni baş nazir sadəcə olaraq ölkə daxilindəki müxalifətin ona qarşı çıxmaması, hansısa formada yerini laxlatmaması üçün bu addımı atmaq məcburiyyətində qalıb. Bir sözlə, yenə də Nikol daxili auditoriyaya hesablanan addım atmalı olub. Narazılıqların qarşısını almaq, bununla da öz kürsüsünü, hakimiyyət kreslosunu qorumaq niyyəti ilə hər addıma hazır olan erməni baş nazirinin də, onun hakimiyyət komandasının da, ümumilikdə, erməni diplomatiyasının da sözügedən beynəlxalq təşkilatda məğlubiyyəti, fiaskoya uğraması isə nə qarışıqlıqların, nə də artıq müşahidə olunan reznansın qarşısını ala bilmədi. Vovayeviçin, onun hakimiyyət komandasının bu dəfə də uğursuzluğa düçar olması həqiqətən də erməni cəmiyyətini əməlli-başlı silkələyib və artıq vəziyyət işğalçı ölkə hakimiyyəti üçün heç də arzulunan deyil, çünki həmin ölkə vətəndaşları küçə nümayişçisinin yalanlarından, yalançı vədlərindən, uğursuzluğundan və ümumiyyətlə, məğlubiyyətlərindən cana yığılıb.

Təkcə Ermənistanın deyil, bu ölkənin havadarlarının, ermənipərəst qüvvələrin belə BMT Təhlükəsizlik Şurası bəyanatının uğurlu olacağı arzuları puç oldu. Bunu erməni mediası özü də açıq-aydın şəkildə etiraf edir. Etiraf edir ki, heç bir qətnamədən söhbət gedə bilməz və bunu bütün ölkələr, eləcə də ermənipərəstliyi ilə seçilən Fransa da qəbul etməli oldu. Çünki hər biri fakt qarşısında qaldı. Fakt isə onu deməyə əsas verir ki, Ermənistan tərəfi heç nəyə nail ola bilmədi. "Ərzaq və dərman çatışmazlığı, eləcə də elektrik enerjisinin verilişinin kəsilməsi barədə mütəmadi məlumatlardan xəbərdardır", deyən BMT-nin Humanitar Məsələlər üzrə Koordinasiya İdarəsinin Əməliyyatlar və Vəkillik üzrə direktoru Edem Vosornu etiraf edib ki, vəziyyətlə bağlı məlumatın doğruluğunu təsdiq edə bilmir. Ən maraqlı, eləcə də diqqətçəkən məqam isə, onun məhz Ermənistan da daxil olmaqla, hamını "humanitar səyləri siyasiləşdirməməyə" çağırması olub. Elə təkcə bu çağırış özü hər zaman erməni mövqeyini dəstəkləyən Fransa üçün yetərli idi və görünür bu ölkənin siyasi immunitetinin aşağı düşməsi də təsadüfi deyildi. Rəsmi Parisin bu dəfə də Azərbaycanın qələbəsini həzm etmək məcburiyyətində qalması elə məhz bu baxımdan səbəbdiz sayılmır. Fransaya da olsa gözünü dikən ermənilərin öz ölkələri daxilində bir qarşıqlıqla qarşılaşmaları əlbəttə ki, başadüşüləndir. Çünki ölkələrinin də, havadarlarının da tamamilə gücsüz, çarəsiz və məğlub durumda qaldığını, Azərbaycanın isə dəstəkləndiyini müşahidə etməli oldular.

Ölkəmizi dəstəkləyənlər arasında təkcə qardaş ölkə olan Türkiyə deyildi. Faktiki olaraq Çin kimi bir qüdrətli dövlət də Azərbaycanın tərəfində idi və heç də nə İrəvanın, nə də digərlərinin fikirlərini təkrarlamadı və məzələnin həlli ilə bağlı ölkələrin özlərini kompromislar axtarmağa çağırdı. Deməli, yalanlarının ayaq tutub yeriməsi ümidi ilə yaşayanların ümidləri puça çıxdı. Heç Rusiya belə erməniləri qane edə biləcək mövqe sərgiləmədi. "Problemlər istənilən halda Bakı ilə İrəvan arasında həll olunmalıdır və kənardan tətbiq edilən heç bir sxem və həll yolu onların dialoqunu əvəz edə bilməz" deyən rusiyalı nümayəndə əslində, bununla dolayısı ilə bildirib ki, ermənilərin oyunlarına kiminsə alət olmaq niyyəti yoxdur. Təsəvvür etmək çətin deyil ki, rusları özlərinə böyük qardaş hesab edənlərin indi halı bundan sonra necədir. Hayların nə hayda olduqları barədə hər kəsin bundan sonra artıq hər kəsə bəlli olar. Yəni, Ermənistanda rezonansın səbəbsiz olmadığı göz önündədir və çətin ki, belə bir rezonans mövcud Ermənistan hakimiyyətinə ucuz başa gələ.

İndi erməniləri daha çox qıcıqlandıran səbəb həmin o növbədənkənar iclasda Ermənistan tərəfinin özünə müttəfiq saydığı ölkələrin daimi nümayəndələrinin hansısa qətnamənin qəbul edilməsinə həm təsirinin, həm də marağının sıfır səviyyəsində olması idi. Əvvəla, təsirinin sıfır səviyyəsində olması əbəs yerə deyildi, Azərbaycanın, onun həqiqətlərinin, yaratdığı reallıqlarının nəzərə, hesaba alınması, bununla hesablaşılması idi ki, bu da rəsmi Bakının növbəti diplomatik qələbəsi sayılır. Digət tərəfdən də axı müttəfiqlərinin qətnamənin qəbul edilməsinə marağının olmaması onu göstərir ki, onların Ermənistanla müttəfiqliyi çox şərtidir. Daha dəqiq desək, ermənilər gördülər ki, ölkələri ilə müttəfiq olan ölkələr onlardan alət olaraq istifadə edirlər və niyyətləri hayların nəyə isə nail olması yox, Cənubi Qafqazda olan bu ölkədən öz məqsədləri üçün istifadə etməkdən ibarətdir.

Xarici siyasətlərində, eləcə də nəzərdə tutduqları çirkin niyyətlərində uğursuzluqla qarşılaşan ermənilər çaşqın vəziyyətdədirlər. Bu çaşqınlıq təkcə küçə nümayişçisi Nikol Paşinyana deyil, bütövlükdə erməni cəmiyyətinə baha başa gələ bilər. Bunu hamıdan yaxşı bilən bir zamanlar əli sarıqlı, belində çanta küçələrdə var güçü ilə çığıran və manipulyasiyaları hesabına, eləcə də Qərbin dəstəyi sayəsində aranı qarışdıran, bulanıq suda balıq tutanlar misalında hakimiyyət kürsüsünü qamarlayan Nikol Paşinyandır. O, bilir ki, belə bir çaşqınlıq, bu cür qarşıqlıqda kimsə onun özünü də, hakimiyyətini də hesaba belə almaya bilər. Bu zaman isə təkcə onun kürsüsü deyil, bütövlükdə Ermənistanın qondarma da olsa müstəqilliyi, suverenliyi, hətta dövlətçiliyi belə əldən gedə bilər. İndi Paşinyan bilir ki, ölkəsindəki rezonansın fonunda kimlərsə özü kimi yararlana, bundan istifadə edə bilər, istənilən anda təzyiqlərlə üzləşə bilər və hətta qarşıqlıq, xaos elə bir vəziyyətə gətirib çıxara bilər ki, vətəndaş müharibəsi yaransın, hansı ki, bu, işğalçı ölkənin bu dəfə dərhal tarixin arxivinə yazılması deməkdir. Əbəs yerə deyildi ki, erməni baş nazir yenə də daxili auditoriyaya hesablanmış çıxışı ilə yalanlar söyləyir, erməni cəmiyyətini, Ermənistan ictimaiyyətini aldatmağa çalışır.

Tənqiddən, daxili auditoriya tərəfindən qınanılmasından qorxan Nikol ermənilərin iddialarını guya qlobal səviyyədə səsləndiriyini erməni cəmiyyətinin gözünə soxmaq istəyir. Onsuz da revanşist dairələrə güzəştə getmək məcburiyyətində qaldığı açıq-aydın şəkildə çoxdandır bəlli idi. Bu dəfə həmin qüvvələrə nə bəhanə edəcəyini, nə kimi uydurma səsləndirəcəyini özü də bilməyən Paşinyan çaş-baş qalıb. Artıq nə uydurmaları, nə yalanları, nə illüziyaları, nə də 2018-ci ildə istifadə etdiyi Qərbin sühirli çubuğunun kara gəlmədiyini özü hamıdan yaxşı bilir. Yaxşı bilir ki, heç kimi inandıra bilməyəcəyi qondarma və dırnaqarası "humanitar yardım", "fəlakət", "soyqırım" kimi nağıllarına qulaq belə asan yxdur və bu vəziyyətdə daxili auditoriyanı "kiridə bilməsi" müşkül məsələdir.

Diqqətə çatdıraq ki, erməni cəmiyyətini qarışdıran, orada doğan rezonansın səbəbləri bəllidir və bu, təkcə sonuncu dəfə üzləşdikləri məğlubiyyətləri yox, ermənilərin artıq reallıqlarla qarşılaşmalarıdır. Bunlar, bu reallıqlar isə bir deyil, iki deyil, həddindən artıq çoxdur. Amma məsələ burasındadır, onları ən çox qıcıqlandıran Azərbaycana təzyiqlərin mümkünsüzlüyünü öz gözləri ilə görmələri, növbəti dəfə buna əmin olmalarıdır. Ermənilər gördülər və bir daha əmin oldular ki, İrəvanın BMT vasitəsilə Bakıya təzyiq etmək planları təkcə erməni cəmiyyətinin deyil, heç dünya güclərinin də gücü daxilində deyil. Görülər ki, Azərbaycan sülh prosesindən də, mövqeyindən də əl çəkmir. Dərk etdilər ki, Moskva, Vaşinqton və ya Brüssel hansısa bir lazımsız jestlə Bakıya qarşı mövqe sərgiləsə, İrəvanla danışıqlar dərhal dayandırıla bilər. Bəli, Azərbaycan hökuməti sülh prosesini öz nəzarətində saxlayır və istənilən vaxt bu prosesin hansısa vasitələrlə, o cümlədən hərbi yolla pozulmaması da rəsmi Bakı tərəfindən qrunur. Amma dərk edirlər ki, istənilən lazımsız jestdən sonra qorunmaya da bilər və bu, Ermənistana çox baha başa gələr, necə ki, 44 gündə bunun şahidi oldular.

Bundan əlavə, dünya dövlətləri başa düşürlər ki, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam formatda müdafiə edir. Üstəlik, fövqəldövlətlərin psevdohumanitar bəhanələrlə digər ölkələrə təklif etdikləri, bu ölkələri öz ərazilərində ümumiyyətlə nəzarət etmək və ya hər hansı bir şey etmək imkanından məhrum edən kəsilmiş versiyada deyil. İstənilən etnik mənşəli azərbaycanlılardan ibarət Azərbaycan xalqının hüquqları onun bütün torpaqlarında tam suverenliyinin zəruriliyi deməkdir. BMT Təhlükəsizlik Şurasındakı fiaskoya görə Ermənistanda olan rezonans daha çox ağır nəticələrə gətirib çıxara bilər.

***İnam Hacıyev***

# Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ölkəmizin suveren hüququdur

**44 günlük Vətən müharibəsi zamanı düşmən üzərində qazanılan hərbi-siyasi qələbə otuz illik vətən həsrətinə son qoydu. Ölkəmizin beynəlxalq səviyyədə tanınan əraziləri işğaldan azad edildi.**

Postmüharibə dövründə isə dünya regionda yaranan yeni tarixi mərhələyə şahidlik etdi. İşğaldan azad edilmiş vətən torpaqlarında sürətli bərpa-quruculuq prosesinə start verildi. Minalarla çirklənmiş ərazilərin təmizlənməsinə, erməni vandalizminin qurbanına çevrilmiş tarixi-mədəni abidələrimizin, müqəddəs dini inanc yerlərimizin əvvəlki görkəminə qovuşması üçün yeni layihələr hazırlandı. Böyük Qayıdış Konsepsiyası qəbul edilərək bu istiqamətdə bütün zəruri sosial-infrastruktur sahələrinin yaradılmasına başlanıldı. Bu məqsədlə yeni yollar, kommunikasiya xətləri çəkilir, ağıllı kənd və şəhərlər salınır, məktəblər, xəstəxanalar tikilir, elektrik stansiyaları qurulur. Bir sözlə, regionun tez bir zamanda dirçəlməsi və inkişafı üçün lazımi işlər görülür.

Ən başlıcası isə görülən işlər, bərpa-quruculuq prosesi xarici qrant və yardımlar hesabına deyil, yalnız daxili imkanlar hesabına həyata keçirilir. Bütün bu müsbət göstəricilər isə siyasi-iqtisadi kursun düzgün istiqamətdə aparıldığını, mükəmməl idarəetmə mexanizminin yaradıldığını nümayiş etdirir.

Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata etinasız yanaşmaqla, icrası zəruri müddəaları kobud şəkildə pozmağa davam edir. Bunlardan ən başlıcası isə humanitar məqsədli Laçın dəhlizindən öz çirkin hərbi-siyasi məqsədləri üçün istifadə idi. Eyni zamanda, Azərbaycanın Qarabağ iqtisadi rayonundan Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qanunsuz silahlı birləşmələrin çıxarılması tələbini icra etmədilər. Əksinə, ərazilərin minalanmasını, separatçıların silah-sursatla təmin olunmasını həyata keçirdilər. Üstəlik, təbii sərvətlərimizin talan edilərək Laçın dəhlizi vasitəsilə Ermənistana daşınmasını davam etdirdilər.

Bütün bu qanunsuzluqlara və haqsızlıqlara etiraz olaraq azərbaycanlı ekofəallar, ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən Laçın-Şuşa-Xankəndi yolunda etiraz aksiyalarına başlandı. Onların şaxta, qar, çovğun demədən 138 gün fasiləsiz şəkildə nümayiş etdirdikləri haqlı mübarizə vətən, xalq naminə əsl fədakarlıq nümunəsi oldu.

Lakin çox təəssüflər olsun ki, uzun müddət davam edən haqlı, sivil etirazlara və bəyanatlara rəğmən qarşı tərəf rus sülhməramlı kontingentinin də himayədarlığından yararlanaraq alternativ yollardan istifadə etməklə öz çirkin əməllərini davam etdirdilər. Beləliklə, bütün bu qanunsuz əməllər və biganə münasibət Azərbaycan tərəfinin haqlı olaraq daha ciddi tədbirlər görməsini zəruri etdi. Belə ki, 23 aprel 2023-cü il tarixdə Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində Laçın sərhəd-buraxılış məntəqəsi quruldu, fəxarət rəmzimiz üçrəngli, ay-ulduzlu dövlət bayrağımız dalğalandırıldı. Bununla da, xalqımız ölkə sərhədlərinin toxunulmazlığının onun üçün nə qədər böyük önəm daşıdığını bütün dünyaya bəyan etdi. Bütün görülən bu işlərin təməlində vətən sevgisi ilə yoğrulmuş böyük zəhmət, iradə, cəsarətli və dərin düşünülmüş diplomatik addımlar dayanır. Əldə olunmuş bu tarixi nailiyyətlər, qazanılmış böyük uğurlar ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin mərhələli şəkildə planlaşdırdığı hərbi-siyasi xarakterli müdrik strateji gedişlərin əməli nəticəsidir.

Bu gün Azərbaycan-Ermənistan sərhədində Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilməyən Ermənistan tərəfi və onu himayə edən mənfur qüvvələr ölkəmizi guya Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməkdə, Qarabağ bölgəsində humanitar böhran yaratmaqda təqsirləndirirlər. Bu cür yanaşmaqla əslində onlar Azərbaycanın daxili işlərinə müdaxilə etməklə yanaşı, uzun illərdən bəri Ermənistan tərəfindən ölkəmizə qarşı həyata keçirilən təcavüzkar siyasətə fərqli don geyindirməyə çalışırlar.

Ölkəmizi etnik təmizləmə ilə ittiham edənlər anlamalıdırlar ki, tarix boyu xalqımıza qarşı xüsusi qəddarlıqla kütləvi qırğınlar, soyqırımları törətmiş, işğalçılıq, deportasiya siyasəti həyata keçirmiş məhz Ermənistan olmuşdur. Azərbaycan xalqı bu qanlı tarixləri heç vaxt unutmur və unutmayacaqdır. Bu qanlı səhifələrdən biri də Laçın rayonunun 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən işğalı idi. Həmin dövrdə ölkəmizdə baş verən ağır siyasi böhrandan, daxili siyasi gərginliyin pik həddə çatmasından yararlanan ermənilər ilk öncə 9 mayda Şuşanı, ardınca Qarabağın gələcək işğalına yol açan yeganə yolu - Laçını işğal etdilər.

Bu gün postmüharibə dövründə Laçın şəhərində bərpa-quruculuq işlərinin miqyası, yaşayış və ictimai binaların tikintisi onu deməyə əsas verir ki, illər ərzində vətən həsrəti ilə yaşayan laçınlılar mərhələli şəkildə öz doğma el-obalarına, yurd-yuvalarına qayıdacaqlar.

Ölkəmizin sərhədlərinin mühafizəsi və bu sərhədlərdən keçid ölkə qanunvericiliyinə və beynəlxalq səviyyədə qəbul edilmiş qaydalara uyğun şəkildə həyata keçirilir. Bütün çirkin iftiralara rəğmən ölkəmiz öz suveren ərazisində sərhəd-buraxılış məntəqəsini qurduğu elə ilk gündən Qarabağ bölgəsində yaşayan etnik azlıq olan erməni sakinlərinin hər iki istiqamətə gediş-gəlişini şəffaf şəkildə təmin edir.

Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ölkəmizin suveren hüquqları çərçivəsində atılmış legitim əsaslı addımdır. Belə ki, Laçın ölkəmizin tarixi ərazisi olduğundan burada həyata keçiriləcək tədbirlər, o cümlədən sərhəd-buraxılış məntəqəsinin yaradılması da ölkəmizin daxili işidir. Dövlət təhlükəsizliyimizə yönəlik təhdidlərə qarşı suveren ərazimizdə sərhəd-buraxılış məntəqəsinin yaradılması beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq tam qanunidir. Sərhəd təhlükəsizliyimizin təmin olunması ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı, qanunun aliliyinin də tələbidir.








Qarşı tərəf anlamalıdır ki, həm Ermənistanın, həm də onu himayə edənlərin bu cür yanaşmaları bölgəmizdə sülhə və inkişafa xidmət etmir, əksinə, vəziyyəti daha da gərginləşdirir. Bu səbəbdən, gələcəkdə yaranacaq hər hansı mənfi hallara görə Ermənistan tərəfi məsuliyyət daşıyır. Azərbaycan hər zaman əməkdaşlığa, o cümlədən iki dövlət arasında münasibətlərin normallaşması və inkişafına yönəlik səmərəli müzakirələrin aparılmasına açıqdır.

Əgər, Ermənistan həm iqtisadi, həm də siyasi cəhətdən güclənməsini və inkişaf etməsini, sivil dünyanın bir parçası olmasını istəyirsə, qonşu dövlətlərə qarşı əsassız ərazi iddialarından əl çəkməli, xarici siyasət kursunu düzgün planlaşdırmalı, konstruktiv danışıqlara yaşıl işıq yandırmalıdır. Bunun üçün Ermənistan ölkəmizlə sülh razılaşmasının əldə olunmasında qərarlı olduğunu açıq şəkildə nümayiş etdirməli, regionda qalıcı sülhün yaradılması üçün ilk növbədə, həlli zəruri məsələləri icra etməlidir.

Bunlardan ən başlıcası isə iki ölkə arasında sərhədlərin demarkasiya və delimitasiya olunmasına razılıq verməlidir. Xüsusilə anklavlar, yəni hələ də erməni işğalında olan Qazaxın 7 və Naxçıvanın 1 kəndinin işğalına son qoyaraq Azərbaycana - öz həqiqi sahibinə geri qaytarmalıdır.

Qarabağda mövcud qanunsuz silahlı birləşmələrin, separatçı-terrorçu rejimin və onun tərəfdarlarının ərazilərimizdən çıxarılması da gündəlikdə dayanan həlli vacib məsələlərdən biridir. Qarşı tərəf anlamalıdır ki, postmüharibə dövründə regionda yeni reallıqlar formalaşmış, Azərbaycan öz qətiyyətli mövqeyi ilə regionun əsas güc mərkəzinə çevrilmişdir. Bu gün Ermənistan hakimiyyəti, eyni zamanda, onları himayə edən xarici qüvvələr bu faktla barışaraq gerçəklikləri qəbul etməli və Qarabağ iqtisadi rayonunda yaşayan etnik azlıq olan ermənilərin Azərbaycana reinteqrasiyası prosesinə yardım göstərməlidirlər.

Sərhəd-buraxılış məntəqəsinin yaradılması humanitar yardım adı altında Qarabağa gizli yollarla hərbi texnika və silah-sursatın, xüsusilə minaların daşınmasının qarşısını alır. Məlumat üçün onu da qeyd etmək lazımdır ki, 2020-ci ilin 10 noyabr razılaşması ilə döyüş əməliyyatları dayandırıldıqdan bu günə qədər Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minaların partlaması nəticəsində hərbi qulluqçu və mülki şəxs olmaqla, ümumilikdə 299 nəfər vətəndaşımız mina terrorunun qurbanına çevrilmişdir. Onlardan 55-i həlak olmuş, 244-ü isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Bu xüsusda Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması yaxın gələcəkdə Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələrinin çıxarılması, seperatçıların tərksilah olunması baxımından böyük önəm daşıyır.

Laçında Həkəri çayının üzərində Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması böyük Zəfərdən sonra əldə edilmiş əhəmiyyətli hərbi-siyasi qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Bu gün artıq Ermənistanla sərhəddə, Həkəri körpüsündə qurulan sərhəd-keçid məntəqəsində pasport yoxlanışı həyata keçirilir. Eyni zamanda, Azərbaycan Dövlət Gömrük Komitəsi də Həkəri çayı üzərindəki Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsində fəaliyyətə başlamışdır. Laçın sərhəd-buraxılış məntəqəsində yüklərin təmas olmadan, dəqiq və sürətli şəkildə yoxlama-baxış proseduru ABŞ istehsalı olan müasir mobil rentgen aparatı vasitəsilə təmin olunur.

Bu, bir daha göstərir ki, ölkəmizin Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsini yaratmasında məqsəd heç də qarşı tərəfin iddia etdiyi kimi, hərəkəti məhdudlaşdırmaq deyil, əksinə Laçın-Xankəndi yolunda avtomobillərin və insanların təhlükəsiz hərəkətini təmin etməklə yanaşı, ölkə ərazisinə qeyri-qanuni daşımaların qarşısını almaqdır. Qürur duyulası hal isə ondan ibarətdir ki, bir zamanlar torpaqlarımızı işğal edən, soydaşlarımızı öz doğma yurd-yuvalarından didərgin salan, onları qətlə yetirən düşmən indi şanlı Azərbaycan bayrağının altından keçərək sərhədçilərimizin önündə dinməz-söyləməz farağat dayanır. Otuz il özlərini "qalib, döyüşkən xalq" adlandıran xəstə təxəyyüllülər indi gerçəkliklə, regionda yaranmış yeni reallıqlarla barışmaq məcburiyyətindədirlər.

***Turkan Agaverdiyeva***

# Tofiq Yaqublu Gürcüstana niyə gedir?



Hər kəsə məlum olan fakt ondan ibarətdir ki, dağıdıcı müxalifətin qazan dibi yalayan ünsürlərinin həyat fəlsəfəsi daha çox milli maraqlara və dövlətçilik mənafeyinə zərbə vurmaqdır. İstəklərinə nail olmaqda uğursuzluğa düçar olsalar da, fəaliyyətlərini davam etdirirlər. Yəni burunları divara, başlara daşa dəysə də, ətəklərindəki daşları yerə atmaq fikrində deyillər. Çünki aciz və zəif durumda olan dağıdıcı müxalifət maddi və mənəvi dəstək aldıqları xarici maraqlı dairələrdən geri çəkilməmək barədə xüsusi tapşırıq alıblar. Tapşırıqlara uyğun olaraq da hər cür şər və böhtan, müxtəlif xarakterli yersiz ittihamlardan istifadə edirlər. Xalqdan ayrı düşən dağıdıcı müxalifətin əsas hədəfi və niyyəti ölkəmizin sosial iqtisadi cəhətdən inkişaf etməsini, hərbi sahədə qüdrətli olmasını arzulamırlar. Elə ermənilər və ermənilərə hərbi, siyasi dəstək verən fransızlar, fars- molla rejimi kimi düşünür və hərəkət edirlər. Bu da "Milli Şura"nın , AXCP-nin və digər müxalif partiya və təşkilatların xarici qaranlıq dairələrdən maliyyə vəsaiti alması barədə indiyə qədər səslənən fikirlərin əsaslı olduğunu təsdiqləyir. Məhz bu və digər amillər səbəbindən cəmiyyət dağıdıcı müxalifəti revanşist ermənilərdən fərqləndirmirlər.

## "Zibil yığnağına bənzəyən bu toplumun yaratdığı partiyanın əxlaq dəyərlərini görün"

Bəzi konstruktiv siyasət yürüdən müxalifət partiyaları və onların sədrləri də cəmiyyətə qarşı ermənipərəst mövqeləri ilə hörmətsizlik göstərən dağıdıcı müxalifət funksionerlərinə qarşı sərt ittihamlar irəli sürür, onları tənqid edirlər. Turan partiyasının başqanı Cahandar Bayoğlunun Azərbaycan Demokratik Rifah Partiyasının sədri Qubad İbadoğlu haqqında söylədiyi əsaslı fikirlərini misal olaraq göstərmək olar. C.Bayoğlu xatırladıb ki, o, 8 ay öncə Q.İbadoğlunun FETO ilə əlaqələrinin olması barədə məlumatlar söyləmiş və bu məlumatları müxtəlif vasitələrlə sübuta yetirmişdir: "Son günlər bu iddia gerçək oldu. Qubad İbadoğlu bu gün FETO ilişkilərinə görə yarğılanır. Yarğı sürecində Qubad İbadoğlu ilə bağlı açıqlamalarımı davam etdirmək niyyətində deyildim. Amma özünü ADR rəhbərlərindən sayan Hüseyin Məlik adlı birisi öz FB səhifəsində mənə qarşı alçakça yazı yazaraq söyüş söyməkdən çəkinməmişdir. Partiya sədr müavinlərindən biri Ədalət Yusifov da ona qoşulub... Zibil yığnağına bənzəyən bu toplumun yaratdığı partiyanın əxlaq dəyərlərini görün. Belə partiyaların varlığı Azərbaycana yaxşı heç nə vəd etmir. Bu arada Əli Kərimlinin yandaşları da orada onlardan geri qalmır".

## Tofiq Yaqubli Tbilisidən Bakıya 75 min avro pul gətirəcək

Dağıdıcı müxalifətə qarşı eyni ittihamlarla Vəhdət partiyasının sədri Tahir Kərimli, BAXCP sədri Qüdrət Həsənquliyev, BAP sədri Elşad Musayev və digərləri də çıxış ediblər. Haqlı tənqidlərdən nəticə çıxarmaqdansa, dağıdıcı müxalifətin şivən məxluqları qarşı tərəfi sosial şəbəkələrdə təhqir edirlər. Görünən ondan ibarətdir ki, söyüş və təhqir elementlərindən daha çox "Milli Şura"nın tüfeyli məxluqu Tofiq Yaqublu adlı birisi çıxış edir. Bu məxluqa "təhqir etmə" deyən, "bəsdir söyüş söymə"- məsləhəti verən, "ağıllı ol" deyib, öyüd-nəsihət verən olmadığından özünü yüyənsiz at kimi aparır. Sosial şəbəkələrdə çoxsaylı səhifələrə nəzər yetirsəniz, orada T.Yaqublunun söyüşdən, təhqirdən, şər və böhtandan ibarət statuslarını görmək olar. Təbii ki, ona bunu yazmağa məcbur edirlər. Ancaq kifayət qədər yaşı və başı olan birisini dövlətçiliyə şər atmağa məcbur etmək, bir qədər şübhələr və suallar yaradır. Ya bu adam həqiqətən də ermənipərəst dairələrin girovudur, ya da siyasətçi deyil. Bir qədər əvvəl REAL partiyasının katibi Natiq Cəfərli demişdi ki, T.Yaqublu siyasətçi deyil. Üstünə təhqirlər yağdırılanda N.Cəfərli T.Yaqubluya xəbərdarlıq statusunda yazmışdır ki, onu Ə.Kərilmlinin trol dəstəsi söysə də, bu məsələdə T.Yaqublunun da xüsusi rolu var: "Son kəs xəbərdarlıq edirəm, ailəmi, anamı söydürəcək qədər alçalmayın!". N.Cəfərlinin yazdıqlarına istinadən demək olar ki, həqiqətən də T.Yaqublu siyasətçi deyil, sadəcə, bədbəxti aldadıb, siyasi tora salıblar. Necə ki, Cəmil Həsənlini müxtəlif yalan vədlərlə aldadıb elmdən uzaqlaşdırdılar və siyasətə cəlb etməklə özlərinə tay etdilər. İndi də C.Həsənli çox çalışsa da siyasət bataqlığından çıxa bilmir. Eləcə də T.Yaqublu artıq zibilin içindədir, istəsə belə siyasətdən gedə bilməz. Əks halda uzun illərdir ki, aldığı pul-paranı geri qaytarmalıdır ki, bunu da etməyə T.Yaqublunun imkanı çatmaz. Bu baxımdan özünü atıb xarici ağaların qucağına. Onlar nə sifariş versələr, nə tapşırıq versələr edir. İndi də deyilənlərə görə, Gürcüstana çağırılıb. Sadəcə, özünü bic və çoxbilmiş kimi göstərməyə çalışır. Yəni, çağırılan yerə birbaşa Bakıdan deyil, Moskvaya, oradan isə Tbilisiyə getməyi planlaşdırır. Məlumatlı mənbənin iddiasına görə, T.Yaqublu Tbilisidə "Soros" Fondunun Cənubi Qafqaz üzrə nümayəndəsi ilə görüşəcək və gələcək əməkdaşlıq, görülməsi olan işlər, nəzərdə tutulan planlar ətrafında söhbətlər aparacaq. Təbii ki, AXCP -nin keçmiş müavini kimi Azərbaycana gələndə özü ilə Əli Kərimliyə çatdırılacaq 75 min avro pulu gətirəcək.

***İ.ƏLİYEV***

***P.S. Tofiq Yaqublunun "Soros" Fondunun Cənubi Qafqaz üzrə nümayəndəsi ilə görüşündən daha geniş və detallı məlumatları Tbilisidə olan mənbəmizlə dəqiqləşdirməklə növbəti sayımızda oxuya bilərsiniz.***

# Arutyunyan aradan çıxır?

*Erməni mənbələri nə yazır?*

**Artıq bir neçə gündür ki, separatçı qurum və Ermənistanın "siyasi" dairələri qondarma rejimin saxta "prezidenti" Araik Arutyunyanın tezliklə istefa verəcəyi ilə bağlı xəbərləri intensiv şəkildə yaymaqdadırlar.**







## "Hraparak": "Arutyunyanın yaxın adamları dünən bizi əmin etdilər ki..."

Belə ki, bəzi iddialar da üst-üstə düşmür. Misal üçün, "Aravot"qəzeti onun hər hansı yolla aradan çıxacağını bildirir, lakin "Hraparak" nəşri xəbər verir ki, separatçı "lider" istefa verməyəcək: "Arutyunyanın yaxın adamları dünən bizi əmin etdilər ki, istefa olmayacaq. Bununla belə, eyni zamanda, müəyyən etdik ki, bu, "artsax prezidenti"nin belə bir niyyətinin olmadığı anlamına gəlmir. Bəlkə indi var, amma bəzi şərtlərə əsaslanaraq, o, qərarından geri çəkildi".

Halbuki "Aravot" fərqli fikirlər yayıb. Bildirib ki, Arutyunyanın getməsi labüddür, çünki Bakı bütün hallarda onu həbs etmək qərarını verib. Bu baxımdan, o, qaçmaq yolunu seçib.

## Samvel Babayandan imtina edilib

"Hraparak" isə Qarabağdakı mənbələrinə istinadla yazır ki, həftənin əvvəlində Araik Arutyunyan separatçı rejimin "siyasi elitası"nı, "parlament" qüvvələrinin başçılarını, sabiq tanınmamış "dqr" rəhbərləri Bako Saakyan və Arkadi Qukasyanı, keçmiş "dövlət naziri" Ruben Vardanyanı dəvət edib və onlarla dörd saatdan çox müzakirə aparıb. İclasda "Daşnaksutyun" partiyasından qondarma qurumun "parlament"inin yeni "sədr"i seçilmiş Davit İşxanyan və digərləri də iştirak ediblər.

Nəşr bildirir ki, sözügedən görüşdə Samvel Babayanın iştirakı məqsədəuyğun sayılmayıb deyə ona təklif göndərilməyib. Çünki o, Arutyunyanın "siyasi kursu" ilə qəti şəkildə razılaşmır.

Erməni KİV-i onu da əlavə edib ki, Arutyunyan artıq "prezident" vəzifəsinin yükündən yorulub və istefa vermək qərarına gəlib: "Lakin bunu etməzdən əvvəl o, "artsax"ın taleyi ilə bağlı narahat olan siyasi qüvvələrə və "dövlət rəsmiləri"nə məlumat vermək istəyib ki, onlar Arutyunyanın istefasından sonra nə edəcəklərini bildirsinlər. A.Arutyunyan toplantıda bildirib ki, həftənin sonuna kimi istefa vermək qərarına gəlib, çünki Laçın yolunun bağlanmasından sonra "artsax" üçün artıq heç nə edə bilmir".

Mənbə bildirib ki, Arutyunyan toplantıda olanlardan xahiş edib ki, onun qərarına anlayışla yanaşsınlar və onu bəzi arqumentlərlə inandırmağa çalışmasınlar:

"Çünki o, artıq belə aciz mövqe tuta və tüpürdüyünü yalaya bilməz. Ən əsası isə Arutyunyan əmin edib ki, o, qərarını Ermənistan hakimiyyəti ilə də müzakirə edib. Arutyunyan deyib ki, İrəvan bu məsələdə ona heç bir problemin olmadığını söyləyib. "Prezident" "Artsax"da sülhməramlı missiyanı yerinə yetirən Rusiya hərbi qrupunun rəhbərliyini də məlumatlandırıb".

## Azərbaycan bayrağı Xankəndiyə tərəf sancılmaq üçün artıq tam hazır vəziyyətdədir!

Erməni nəşrin verdiyi məlumata görə, Arutyunyanın sözləri toplantı iştirakçılarında soyuq duş effekti yaradıb və onlar Arutyunyanı qorxaqlıqda ittiham ediblər: "Sözügedən şiddətli tənqidlərdən sonra Arutyunyan istefa qərarından geri dönsə də, "Artsax"da hesab edirlər ki, nə vaxtsa onun bir daha belə bir istəyi olmayacağına zəmanət yoxdur. Ona görə də müzakirələrdə onun getməsinin yaxın vaxtlarda "qanunvericilik" yolu ilə həlli məsələlərinə də toxunulub".

Beləliklə, saxta və separatçı rejimdə vəziyyət gərginlik həddinə çatıb və bu fakt artıq onun çöküşündən xəbər verməkdədir. Hər halda görünən də budur ki, Azərbaycan bayrağı Xankəndiyə tərəf sancılmaq üçün artıq tam hazır vəziyyətdədir.

***Afət Tahirqızı***

## Əcnəbi ekspertlər:

# Ermənistan silahlı münaqişənin yeni mərhələsinə qərar verib

"Qarabağda genişmiqyaslı müharibə planlaşdırılır, ya da bu, İrəvanın separatçılarla birgə başlatdığı böyük silahlı münaqişənin proloqudur. Buna hazır olmaq lazımdır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*









Regionda baş verən son hadisələrə obyektiv qiymət verməkdən belə nəticə çıxır ki, İrəvan faktiki olaraq Bakı ilə danışıqlar prosesindən tamamilə geri çəkilib və eyni zamanda sərhəd zonasında Azərbaycan mövqelərinin atəşə tutulmasını intensivləşdirir, silah və texnikanı şərti sərhədə çəkir. Və bütün bunlar müxtəlif erməni xadimlərinin bütün beynəlxalq platformalarda Azərbaycana qarşı "soyqırım" və "aclıq" ittihamları fonunda baş verir.

Bölgədəki mövcud vəziyyət israilli publisist-jurnalist, İsrail Jurnalistlər Birliyinin beynəlxalq əlaqələr komissiyasının rəhbəri Rostislav Holtsmanı da narahat edir.

"Bu, həqiqətən proqnozlarda yanılmaq istədiyiniz zamandır. Ancaq təəssüf ki, belə bir ssenari hadisələrin vektoru ilə göstərilir. Münaqişələrin bu klassiki israillilərə əvvəlcədən tanışdır: hər şey atəşkəs kimi görünəndə, atəşkəs razılaşması əldə edilir və məğlub olan tərəf qalibin ərazi bütövlüyünü tanıyır, ancaq bədbəxtlik budur ki, müəyyən bir milli azlıq onsuz da qalır. Qalib dövlətin suveren ərazisini tanınır, bunun ardınca məğlub olan ölkə birdən qalibi günahlandırmağa başlayır. Təxribat mexanizmi isə elədir ki, "təqib" bəhanəsi ilə ağlasığmaz böhtanlar ataraq, aramsız təbliğat apararaq, haqlı olan tərəfin arqumentləri sadəcə olaraq təxribatçıların cəfəng bəyanatları altında basdırılanda, bu həmin ölkəni özünü müdafiə etməyə vadar edir. Məsələn, hadisələrin belə dönüşü o zaman baş verdi ki, İsrail və İordaniya sülh müqaviləsi imzalamaq ərəfəsində idi, amma hər şey tam əksinə oldu.



Fikrimcə, indi bütün əlamətlər onu göstərir ki, ya Qarabağda genişmiqyaslı müharibə planlaşdırılır, ya da bu, İrəvanın separatçılarla birgə başlatdığı böyük silahlı münaqişənin proloqudur. Buna hazır olmaq lazımdır", - deyə R.Qoltsman vurğulayıb.

İsrailli ekspert xatırladır ki, Ermənistan Silahlı Qüvvələrinin böyük hissəsi Azərbaycan ərazisindən çıxarılanda çoxları nəhayət sülhün bərqərar olacağına ümid edirdi, lakin bu baş vermədi. Təl-Əvivin separatçı birləşmələrlə qarşıdurma təcrübəsi göstərir ki, məğlub olan tərəf bir az özünə gələn kimi, vəziyyətə uyğunlaşaraq, yenidən yeni revanşa hazırlaşmağa başlaya bilər.

"Əlbəttə, bu, kənardan kömək olmadan baş verə bilməzdi - bu, göz qabağındadır. Hər şey göstərir ki, bu təxribatların təşkilatçıları beynəlxalq ictimaiyyətin bəzi nümayəndələrinin dəstəyini alıblar. Və belə çirkin oyun üçün çox açıq bir iddiaçı Fransadır. Hansı ki, Cənubi Qafqazda sülhün bərqərar olması üçün döyüşməyə hazır olduğunu hər yerdə açıq şəkildə bəyan edir, əslində isə erməni tərəfdə qisas almaq üçün əsassız ümidlər oyadır. Bu o deməkdir ki, qarşıdan yeni genişmiqyaslı silahlı münaqişə gəlir. Yenə də vurğulamaq istərdim ki, proqnozumun baş tutmamasını çox istərdim, lakin hələlik əlamətlər başqa prosesdən xəbər verir", - deyə R.Qoltsman yekunlaşdırıb.

Eyni fikri, prinsipcə, qazaxıstanlı politoloq Atbek Aytmatov da bölüşür, o hesab edir ki, 44 günlük müharibədən sonra İrəvanın separatçılarla əlaqələri kəsilməyib.

"Burada erməni separatizminin funksionallığı kimi bir qədər paradoksal faktı nəzərə almağa dəyər. Bəli, onun "doğma başçısının" guya rəsmi İrəvanla fikir ayrılığı ola bilər, amma Azərbaycana qarşı genişmiqyaslı təxribatlara gəlincə, hər şey çox rəvan və konstruktiv şəkildə baş verir. Bundan əlavə, Harutyunyanla Paşinyan arasında hər cür iddia edilən anlaşılmazlıqlar da bir teatrdır. Paşinyan Bako Saakyanı oradan sıxışdırıb Arayıki bu vəzifəyə təyin etmədimi? Deməli, Arutyunyan həmişə İrəvana xidmət etməyə hazırdır və o, nə etdiyini çox gözəl bilirdi.

Qarabağda mindən artıq silahlı separatçı İrəvanın Qarabağın bir hissəsinə nəzarət etmək üçün son şansıdır və o, onlardan belə asanlıqla əl çəkməyəcək. Bu, onun ərazidəki son manipulyasiya alətidir, buna görə də hərbi texnikanın hərəkəti və regionda silahlı təxribatların güclənməsi, eləcə də dinc təşəbbüslərin qətiyyətlə aradan götürülməsi baxımından Ermənistan silahlı qüvvələrin yeni raunduna qərar verdi. Xarici havadarlarının dəstəyi ilə əlbəttə", - deyə A.Aytmatov yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***



SON SƏHİFƏ
SƏS
22 avqust
2023-cü il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Oğlan şirin, qız acı paydır?..



Peyğəmbərimizin ”Övladlarınız arasında fərq qoymayın, əgər qoymaq lazım gəlsəydi, mən qızlarıma üstünlük verərdim” kimi dəyərli kəlamı var. Lakin zaman-zaman şahidi oluruq ki, əksər insanlar nədənsə oğlan övladına qızdan üstün baxırlar. İnsanlar psixoloji amillərin təsiri ilə, xüsusilə ata nəslinin, ocağın davam etməsi arzusu ilə ailədə, heç olmasa, bir oğlan uşağının doğulmasını istəyirlər. Gözlədikləri oğlan uşağı doğulmadıqda ər arvadını məzəmmət edir, qadın da oğlan istədikləri halda qız olduğu üçün haqsız yerə özünü günahkar sayır. Quranın Nəhl surəsinin 58-59-cu ayələrində buyurulur ki, İslamdan əvvəlki cahiliyyə dövründə ərəblərdən birinə ”qızın oldu” xəbərini verdikdə o, həddindən artıq kədərlənər, üzü qəm-qüssədən qapqara qaralar, xalqdan gizlənməyə çalışar, yenicə doğulmuş qız uşağını utana-utana əlində tutar, yaxud da onu diri-diri torpağa basdırarmış.

## Niyə məhz oğlan?

Ölkəmizdə də hər zaman oğlan uşağı qızdan daha çox arzulanıb, bu, faktdır. Bir-birinin ardınca doğulan qız uşaqlarına görə dağılan ailələrin də sayı çox olub, oğlan övladı dünyaya gələnədək kəskin qayınana-gəlin münasibətləri də olub, hər kəs tərəfindən haqsız yerə qınanılan analarımız da olub. Hətta oğlan övladı ilə qız övladına münasibətdə kəskin fərq ötən əsrin əvvəllərində ölkəmizdə o dərəcədə özünü büruzə vermişdir ki, ”Molla Nəsrəddin” jurnalında da həmin mövzuya münasibət bildirilmişdir. Aşağıdakı karikaturalar o dövrdə ailələrimizdə dünyaya gələn oğlan və qız övladlarına münasibəti aydın şəkildə əks etdirir. Oğlan olanda...

## Qız olanda...

Zəmanəmizdə də ümumiyyətlə, qız övladını istəməyən adamlar çoxdur. Yaxud da bir və ya iki qız övladı olan, növbətinin hökmən oğlan olması arzusu ilə yaşayır. Bizim cəmiyyətimizdə yeni ailə quran gənclərə, yaxud uşaq gözləyən gəlinlərə, övladı olmayan adamlara deyirlər: - ”Allah sənə şirin bir pay versin”. Yaxşı bilsəm də ki, bu şirin pay deyiləndə nə nəzərdə tutulur, lakin hər dəfə bu sözləri yenidən eşidəndə onu ikrah hissi ilə qarşılamışam. Bu yaxınlarda belə bir deyimlə yenidən qarşılaşdım. Orta yaşlı bir qadın uşaq gözləyən qadınla söhbətinin sonunda ”Allah sənə şirin bir pay versin” deyirdi. Yenə də həmişəki ikrah hissi ilə soruşdum: - ”Siz şirin pay deyəndə nəyi nəzərdə tutursunuz?”. Cavabımı belə aldım: - Oğlan uşağını deyirəm də... Mən də ona belə dedim: - Məgər qız acı paydır? Qadın tutuldu və ”Yox, amma oğlan daha yaxşıdır axı. Oğlan düşmən çəpəridir, kökün daşıyıcısıdır”,- dedi. İçimdə yeni bir ikrahın baş qaldırdığını hiss etdim və dedim: ”Bəs o düşmən çəpəri dediyiniz övladları kim gətirir dünyaya? Acı pay hesab etdiyiniz qızlar gətirmirmi? Deyirsiniz ki, oğlan düşmən çəpəridir. Bizim qızlarımız da elə oğlanlarımız kimi yeri gələndə düşmən çəpəri olurlar. Onlar nə vaxt kişilərdən bir addım geri qalıblar ki?..”.

## Çox qəribədir...

Qəribədir ki, bəlkə də kişilər oğlan övladını qadınlardan çox arzulayırlar. Ancaq bu istəkləri ni qadınlar qədər qabartmırlar. Özümüz qadın ola-ola hər kəsə ”şirin pay” arzulayırıq. Lakin dərk etmək lazımdır ki, oğlan, yaxud qız olsun, fərqi yoxdur, ta ki sağlam, yaxşı, xeyirli övlad olsun. Elə bir adam tapılmaz ki, o, qonşuluğunda, qohumları arasında yaxşı və yaxud pis övlada rast gəlməmiş ola. Bu, qız da ola bilər, oğlan da. Bir ailə tanıyırdım, dörd oğlan övladı var idi. Ata vəfat etmişdi, ana isə tək yaşayırdı. Övladlar uzaqda deyildilər, amma anadan ayrı yaşayırdılar. Günlərin birində ana vəfat edir, oğlanları iki gündən sonra xəbər tuturlar. Bunun əksi olaraq çox sədaqətli, ata-ana qədrini bilən övladlar var ki, xəstə, yaşlı valideynlərinə ömrünün sonunadək böyük hörmətlə yanaşır, onları əzizləyir, qayğılarını çəkirlər.

## USM-nin bəhrələri

Oğlan övladına olan istəyi USM müayinələri son illərdə o həddə gətirib çatdırmışdır ki, 2011-2015-cü illərdə doğulan uşaqların statistik məlumatlarına görə hər 100 qıza 116 oğlan düşürdü. Bu nisbətə görə Azərbaycanın dünyada Çindən sonra ikinci yeri tutduğu qeyd olunurdu. Sosialoqlar hesablamışdılar ki, belə davam edərsə, 2020-ci ildə doğulan hər dörd oğlana bir qız düşəcək. Bu isə demoqrafiyanın pozulması, gələcəkdə böyük problemlərin yaranacağına yol açılması deməkdir. 2017-ci ildə ölkəmizdə doğulan uşaqlarm 53,1 faizini oğlanlar, 46,9 faizini qızlar təşkil edib. 2020-ci ildə isə doğulan 126 571 uşağın 67 407 nəfəri oğlan, 59 164 nəfəri isə qız olub. 2022-ci ildə isə bu rəqəm oğlanlar üçün 64940, qızlar üçünsə 57906 olub ki, yenə də göründüyü kimi, oğlan uşaqları üstünlük təşkil edir. Bu da balanslaşmada yenə də xeyli fərq var deməkdir Burada elimizin bir deyimini xatırlayıram: - ”Qız qaldıqca qızıla dönər”. Lakin belə davam edərsə, deyəsən qız tapıb evlənmək oğlanlar üçün qızıl tapmağa bənzəyəcək.

## Oğlan, qız fərqi olmaz

Düşünürəm ki, ailələrimizdə oğlan və ya qız övladları arasında ayrı-seçkilik olmamalıdır. Biz həyata özümüz gəlmədiyimiz kimi, alın yazımızı da özümüz müəyyənləşdirmirik. Hər kəsin övlad payı Ulu Yaradan tərəfindən göndərilir. Bir övlad üçün illərlə gözləyənlər var, bunu da unutmayaq. Həmin ailələr oğlan və ya qız olsun, bu barədə düşünmürlər, Allahdan tək bir övlad istəyirlər.

Cəmiyyətimizdə əsas meyarlardan biri ailədə qadınlarla yaxşı rəftar etməkdir ki, İslam dini bunu çox təkidlə buyurur. Belə ki, hətta qadınları Allahın əmanətləri kimi təqdim edərək onların hüquqları barəsində azacıq belə laqeydliyi, etinasızlığı, diqqətsizliyi ilahi əmanətə xəyanət hesab edir. Məhəmməd Peyğəmbər (s) qızı Fatiməni Əli ibn Əbutalibin (ə) evinə köçürən zaman ”Ya Əli, qızım sənin əlində əmanətdir”, - buyurur.

Qız övladına daim üstünlük verən Məhəmməd peyğəmbər belə bir dəyərli fikir də söyləyirdi: ”Kim iki qıza baxıb yetkinlik çağına qədər onları yetişdirərsə, Qiyamət günündə o, mənimlə belə olar”. (Peyğəmbər belə deyib barmaqlarını bir-birinə keçirmişdir). Belə isə yenə də düşünüb-daşınıb cəmiyyətimizi oğlan və qız övladları arasında bu xoşagəlməz fərq qoymadan xilas etməliyik. Qoy ta ki evlərimizdən uşaq səsi gəlsin. İstər oğlan, istər qız olsun, fərqi yoxdur.

***Mətanət Məmmədova***

## BAŞSAĞLIĞI

Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatının sədri Anar Nəbiyev üzvlər adından Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova anası **Gülbikə xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# Azyaşlılar və böyüklər arasında yeni yayılan virusdan necə qorunaq?



***Son vaxtlar azyaşlılar və böyüklər arasında virus yayılıb. Belə ki, hətta bu virus onları xəstəxanalıq edir. SİA mövzu ilə bağlı mütəxəssis pediatr Yüksel Hüseynlinin fikirlərini öyrənib. Onun sözlərinə görə, yay aylarında bir neçə növ virus infeksiyası yayılır: ”Əsasən, enteroviruslar dediyimiz mədə -bağırsaq sistemini zədələyən adenovirus və rotavirusa rast gəlirik. Yanaşı olaraq yuxarı tənəffüs yollarında infeksiya törədən viruslar da yayılır.***

Ən çox müraciət səbəbi yüksək hərarət, boğaz ağrısı, qusma, ishal və baş ağrısı kimi şikayətlərə bağlıdır. Əsasən, adenovirus infeksiyasında və bəzi bakterial infeksiyalarda bu klinik əlamətlərə rast gəlinir.

Körpə uşaqlarda xəstəlik zamanı halsızlıq, iştahsızlıq və qidadan imtina hallarına rast gəlinir. Bununla yanaşı qusma və ishal da qeyd edilirsə, dehidratasiyaya, yəni bədənin susuzlaşmasına səbəb ola bilər ki, bu kimi hallar uşağın vəziyyətini daha da ağırlaşdırır, temperaturun enməsi çətinləşir, xəstəliyin sağalma dövrü uzanır. Əlamətlər müşahidə olunan uşaqlar və böyüklər vaxtında həkimə müraciət etməli və səbəb araşdırılıb uyğun müalicə tətbiq edilməlidir.

Virus xəstəlikləri əsasən hava damcı, ortaq əşyalardan istifadə və çirkli əllər vasitəsilə yayılır. Qorunmaq üçün mütləq uşaq və böyüklər tez-tez əlləri yuyub, xəstə olan şəxslərlə ortaq əşyalar və yaxın kontaktdan qaçınmalıdırlar. Baxça və məktəblərə xəstə uşaqlar göndərilməməli, evdə sağalanadək istirahət etməlidirlər”.

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000